N39 (1138) 1-7 oktyabr 2020-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# “Azərbaycan Ordusu öz xalqının və öz ərazisinin müdafiəsini təmin etmək üçün kifayət qədər hazırlıqlıdır”




## Bunu Azərbaycan Prezidenti İlham Əliyev “Rossiya-1” telekanalının “60 dəqiqə” proqramında sualları cavablandırarkən deyib.

***Sentyabrın 29-da “Rossiya-1” telekanalında yayımlanan “60 dəqiqə” proqramında Azərbaycan-Ermənistan təmas xəttində baş verən son hadisələrə həsr olunan veriliş efirə gedib.***



Verilişdə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan aparıcıların suallarını cavablandırıblar.

Verilişin aparıcıları birinci olaraq sualları Azərbaycan Prezidenti İlham Əliyevə ünvanlayıblar.

**Aparıcı:** *Cənab Prezident, sağ olun ki, bu müsahibəni verməyə razılaşmısınız. İndi birbaşa cəbhədə nələr baş verir, artıq aviasiyadan istifadə edilməsi barədə məlumat alınır.*

**Prezident İlham Əliyev:** Cəbhədə vəziyyət gərgindir. Ermənilərin sentyabrın 27-də səhər başladıqları hərbi təxribat nəticəsində Azərbaycanın yaşayış məntəqələri və bizim döyüş mövqelərimiz şiddətli artilleriya atəşinə məruz qalıb. Bu təcavüz nəticəsində Azərbaycanın 11 dinc sakini, o cümlədən 2 uşaq həlak olub, hərbi qulluqçular arasında da həlak olanlar var. Biz təcavüzkara adekvat cavab verməyə və beləliklə, öz xalqımızı, öz adamlarımızı və torpağımızı müdafiə etməyə məcbur idik. Beləliklə, artıq üçüncü sutkadır ki, şiddətli döyüşlər gedir, bu döyüşlər nəticəsində Azərbaycan Ordusu bir sıra yaşayış məntəqələrini işğaldan azad edib, həmçinin müxtəlif istiqamətlərdə strateji yüksəklikləri tutub. Bu gün vəziyyət elədir ki, fəal döyüş əməliyyatları aparılır.

**Aparıcı:** *İlham Heydər oğlu, xahiş edirəm Türkiyənin rolunu izah edin. Ankara Prezidentin və Xarici İşlər nazirinin şəxsində rəsmən bəyan edib ki, döyüş meydanında Sizə kömək edəcək.*

**Prezident İlham Əliyev:** Hesab edirəm ki, Türkiyənin rolu regionda sabitləşdirici xarakter daşıyır. Türkiyə bizə qardaş ölkə və bizim müttəfiqimizdir. Ermənistanın Azərbaycana hücum etməsini dünya ictimaiyyətinin bildiyi ilk saatdan etibarən Türkiyə dövlət başçısı və digər rəhbərlər səviyyəsində birmənalı olaraq Azərbaycanı dəstəklədiyini, beynəlxalq hüququ dəstəklədiyini bildirib. Ona görə ki, Ermənistan 30 ilə yaxın müddətdə Azərbaycan ərazisini işğalda saxlamaqla beynəlxalq hüququ kobud şəkildə pozur. Türkiyənin rolu, əslində, məhz bundan ibarətdir, başqa heç bir rolu yoxdur. Türkiyə bizə mənəvi dəstək göstərir və biz Türkiyə rəhbərliyinə, Türkiyə Prezidentinə və türk xalqına bizimlə həmrəy olduğuna və bizi dəstəklədiklərinə görə təşəkkür edirik. Guya Türkiyənin münaqişə tərəfi kimi iştirak etməsi barədə erməni tərəfin yaydığı bütün şayiələr təxribat xarakteri daşıyır, indiki dildə desək bu, feyk-nyusdur. Türkiyənin münaqişədə iştirakı barədə heç bir sübut yoxdur və buna zərurət yoxdur. Azərbaycan Ordusu öz xalqının və öz ərazisinin müdafiəsini təmin etmək üçün kifayət qədər hazırlıqlıdır.

**Aparıcı:** *İlham Heydər oğlu, beləliklə, Siz belə bir informasiyanı təsdiq etmirsiniz, üstəlik onu təkzib edirsiniz ki, bir saat bundan əvvəl Türkiyə Hərbi Hava Qüvvələri Ermənistan Hərbi Hava Qüvvələrinə məxsus təyyarəni vurub. Söhbət F-16 və SU-25 təyyarələrindən gedir.*

**Prezident İlham Əliyev:** Bizim bu barədə məlumatımız yoxdur. Lap yaxın vaxtda mənə məruzə ediblər ki, informasiya məkanında belə bir xəbər yayılıb. O, heç nə ilə təsdiq edilməyib. Türkiyə Hərbi Hava Qüvvələrinin F-16 təyyarələri döyüş əməliyyatlarında heç bir şəkildə iştirak etmir. Bilirsiniz ki, bu gün müasir texnologiyaları nəzərə alsaq nəyisə gizlətmək çox çətindir. Çünki obyektiv müşahidə formaları var, peyk müşahidələri var və ona görə də bunun növbəti təxribat olmasını yoxlamaq çox asandır. Erməni tərəfin bu cür yalan xəbərlər yaratmaqda məqsədi bizə aydındır. Əvvəla, öz ərazi bütövlüyünün bərpası vəzifəsini hazırda şərəflə yerinə yetirən Azərbaycan Ordusunun döyüş qabiliyyətini süni şəkildə azaltmaq, həmçinin belə təsəvvür yaratmaq ki, münaqişə genişlənir, ona üçüncü ölkələr qoşulur və beləliklə, öz təxribatına haqq qazandırmaq üçün mümkün qədər çox ölkə cəlb etməyə çalışmaq. Buna görə sizə məsuliyyətlə bəyan edirəm ki, Türkiyə münaqişə tərəfi deyil, münaqişədə heç bir şəkildə iştirak etmir və buna zərurət yoxdur.

**Aparıcı:** *İlham Heydər oğlu, Sizin ölkəniz Ermənistan tərəfindən bir neçə rayonun azad edilməsini nəzərdə tutan Kazan formuluna və ya hər hansı başqa formula tərəf meyil etməyə hazırdırmı? Prinsip etibarilə indi nə etmək olar? Otuz il ərzində Qarabağ münaqişəsinin gah alovlanması, gah da közərməsi şəraitində necə dönüş etməli? Nə etməli?*

**Prezident İlham Əliyev:** Bilirsiniz, Azərbaycan danışıqlarda həmişə konstruktivlik nümayiş etdirib. Vasitəçilik missiyası üçün cavabdeh olan Minsk qrupunun həmsədrləri də bunu təsdiq edə bilərlər. O cümlədən son iki ildə mən dəfələrlə və başqa məsul şəxslər səviyyəsində bəyan etmişik ki, biz illər boyu işlənib hazırlanmış, Minsk qrupunun və onun həmsədrlərinin danışıqlar prosesi üçün əsas hesab etdikləri nizamlama prinsiplərinə sadiqik. Üstəlik son iki ildə və bundan əvvəl də dəfələrlə bəyan etmişik ki, biz danışıqların formatına da sadiqik. Danışıqlar Ermənistan ilə Azərbaycan arasında aparılır. Münaqişənin yalnız iki tərəfi var. Bəzən münaqişədən söhbət gedəndə bütün tərəflər haqqında danışırlar. Bu, düzgün anlayış deyil. Bütün tərəflər yoxdur, yalnız iki tərəf var - Ermənistan və Azərbaycan. Lakin son illər ərzində, Ermənistandakı indiki hakimiyyətin törətdiyi Soros çevrilişindən sonra nələr baş verib? Ermənistanın baş naziri açıq-aşkar bəyan edir ki, “Qarabağ Ermənistandır və nöqtə”. Belə olan halda hansı danışıqlar prosesindən söhbət gedə bilər. Axı, ATƏT-in Minsk qrupu tərəfindən işlənib hazırlanmış prinsiplərin mahiyyəti ondan ibarətdir ki, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti ətrafındakı ərazilər Azərbaycana verilməlidir. Lakin Ermənistanın baş naziri deyir ki, “Qarabağ Ermənistandır” və üstəlik, deyir ki, biz danışıqları Dağlıq Qarabağın oyuncaq rejimi ilə aparmalıyıq. Beləliklə, danışıqların artıq 20 ildən bəri mövcud olan formatını dəyişməyə çalışır. Deməli, Ermənistan bilərəkdən danışıqlar prosesini pozur, qəbuledilməz tələblər irəli sürür və əgər Minsk qrupu son vaxtlar nizamlamaya kimin əngəl olması barədə daha fəal danışmağa başlayırsa, sentyabrın 27-də, bundan əvvəl isə iyulun 12-də olduğu kimi, təxribatlar törədirlər. Bizim dövlət sərhədindəki mövqelərimizə hücum edilib. Sonra avqustun 23-də Ermənistanın təxribat qrupu tutulub, bu qrupun başçısı təmas xəttində saxlanılıb. Bütün bunlar Azərbaycanı təqsirləndirmək, sonra üçüncü tərəfləri cəlb etmək və beləliklə, danışıqlar prosesini pozmaq üçün edilir. Ona görə ki, erməni tərəfi status-kvonu saxlamaq istəyir. ATƏT-in Minsk qrupunun həmsədrləri isə Rusiya, Fransa və ABŞ-ın dövlət başçılarının şəxsində dəfələrlə bəyanatlar veriblər ki, status-kvo qəbuledilməzdir. Bu isə o deməkdir ki, işğal altında olan ərazilər Azərbaycana qaytarılmalıdır. Biz danışıqlara sadiqik, lakin Ermənistan tərəfindən tamamilə əks hərəkətlər görürük.

**Aparıcı:** *Cənab Prezident, xahiş edirəm deyin, bazar günü nə baş verib, bu qədər genişmiqyaslı və qanlı qarşıdurmaya təhrik edən nə olub?*

**Prezident İlham Əliyev:** Bilirsinizmi, bazar günü baş verən hadisələrə Ermənistan artıq bir neçə ay idi ki, hazırlaşırdı. Əgər siz onların hərəkətlərinin və bəyanatlarının xronologiyasını izləsəniz aşkar görərsiniz ki, onlar bu təxribata şüurlu şəkildə gedirdilər. Bu yaxınlarda, BMT Baş Assambleyasının tribunasından çıxış edərkən mən açıq demişəm ki, Ermənistan müharibəyə hazırlaşır və onu dayandırmaq lazımdır. İyul ayında onlar bizim dövlət sərhədindəki yaşayış məntəqələrimizə silahlı hücum etdilər. Bu, münaqişə zonasından uzaq bir yerdir. O vaxt bir dinc sakin və bir neçə hərbi qulluqçu həlak oldu. Döyüşlər dörd gün davam etdi və Ermənistan ərazisində bizim heç bir hərbi hədəfimiz olmayıb və yoxdur. Buna görə də Ermənistan silahlı qüvvələri bizim ərazidən çıxarılandan dərhal sonra qarşılıqlı razılaşmaya əsasən atəş dayandırıldı. Daha sonra mənim dediyim kimi, təxribat qrupu bizim ərazimizə soxuldu, həmin qrup neytrallaşdırıldı. Sonra erməni tərəfi açıq-aşkar, nümayişkaranə şəkildə əslən Livandan olan ermənilərin Azərbaycanın işğal edilmiş ərazilərində və qədim Şuşa şəhərində məskunlaşdırılmasını elan edir, bu da müharibə cinayətidir. Bu, Cenevrə Konvensiyasının pozulması deməkdir. Bunu nümayişkaranə şəkildə edirlər. Sonra onlar Şuşada – Azərbaycan mədəniyyətinin qədim incisində cinayətkar Dağlıq Qarabağ rejiminin qondarma başçısının qondarma inauqurasiyasını keçirirlər. Bütün bunlar bizə qarşı şüurlu provokasiyalar, bizi münaqişəyə cəlb etmək və cavab hərəkətlərinə təhrik etməkdir. Biz təmkin, konstruktivlik və sağlam düşüncə nümayiş etdirdik, lakin onların niyyətləri baş tutmayanda bu cür cəhd göstərdilər. Üstəlik, daha bir səbəb Ermənistanda mövcud olan daxili siyasi böhrandır. Axı, bu gün Ermənistanda Soros rejimi mövcuddur. Belarusda baş tutmayan çevriliş iki il bundan əvvəl Yerevanda baş tutdu. Bu gün Paşinyanın şəxsində Ermənistanın rəhbəri Sorosun əlaltısıdır. Bu adam çoxlu vədlər verib və bu vədləri yerinə yetirə bilmir, əslində, ölkə böhran içindədir.

Beləliklə, ona bir xarici amil, necə deyərlər, qarışıqlıq lazım idi ki, əhalinin diqqətini yayındırsın, o da bunu edə bildi. Onlar növbəti dəfə bizə hücum etməzdən düz iki gün əvvəl Ermənistanın əsas müxalifət partiyasının lideri həbs edildi. Yəni, Paşinyanın diktator, despotik rejimi öz ölkəsindəki bütün müxalifəti məhv edirdi və indi Azərbaycan xalqına qarşı yenidən təcavüz nümayiş etdirir.

**Aparıcı:** *Sizin mövqeyiniz aydındır. Çox sağ olun. Mümkündürsə lap qısa cavab verin: hə, ya yox. İndi cəbhədə Suriyadan olan muzdlular varmı?*

**Prezident İlham Əliyev:** Yoxdur. Bu, növbəti feyk-nyusdur. Suriyadan heç bir muzdlu yoxdur. Bu barədə heç bir fakt, heç bir sübut yoxdur. Bunu erməni təbliğatı ortaya atıb və müxtəlif saytlarda, müxtəlif kütləvi informasiya vasitələrində dövr edir. Buna heç bir ehtiyac yoxdur. Azərbaycanın hazırlıqlı ordusu var, çox böyük səfərbərlik ehtiyatı var. Dünən mən qismən səfərbərlik elan etmişəm. Biz 2 milyon əhalisi olan Ermənistana qarşı 10 milyon əhalidən 10 minlərlə ehtiyatda olanları orduya çağırırıq, bizim insan ehtiyatlarına ehtiyacımız yoxdur. Buna görə də biz özümüzü müdafiə etməyə və təcavüzkarı elə cəzalandırmağa qabilik ki, o, bir daha bizim tərəfə baxmağa cəsarət etməsin.

**Aparıcı:** *Çox sağ olun. İlham Əliyev bizimlə Bakıdan əlaqədə idi. Sizə cansağlığı arzulayırıq, görüşənədək. Çox sağ olun.*

**Prezident İlham Əliyev:** Sağ olun. Görüşənədək.

**Aparıcı:** *İndi biz Yerevanla əlaqəyə çıxırıq. Ermənistanın lideri, Ermənistanın baş naziri Nikol Paşinyan bizə qoşulur. Salam, Nikol Vovayeviç. İlk növbədə, biz istərdik ki, indi nələr baş verdiyini şərh edəsiniz. Çox həyəcanlı xəbərlər gəlir.*

**Nikol Paşinyan:** Bu gün səhər belə bir xəbər aldıq ki, Azərbaycan bilavasitə Ermənistan Respublikasının ərazisindəki kəndləri bombalayıb. Bundan əvvəl isə sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri Dağlıq Qarabağa qarşı tammiqyaslı hərbi təcavüzə başlayıblar. Onlar artıq üç gündür ki, artilleriyadan və yaylım atəşi sistemlərindən istifadə etməklə Dağlıq Qarabağın yaşayış məntəqələrini bombalayırlar. Təəssüf ki, bizdə həm hərbçilər, həm də mülki əhali arasında həlak olanlar var. Çox mühüm məqam ondan ibarətdir ki, Türkiyə faktiki olaraq bu prosesə cəlb edilib. Bizdə olan mötəbər informasiyaya görə, hərbi təlimatçılar və yüksək vəzifəli hərbçilər indi Azərbaycanın ko-

manda məntəqələrindədirlər və bəzi yerlərdə hətta hərbi əməliyyatlara rəhbərlik edirlər. Daha bir mühüm məqam. Artıq beynəlxalq mətbuatda çoxsaylı materiallar dərc edilib ki, Türkiyə Suriya ərazisindən muzdluları cəlb edir, onları Dağlıq Qarabağa və Ermənistan Respublikasına qarşı müharibədə iştirak etmək üçün Azərbaycana aparır. Yeri gəlmişkən, belə bir məlumat da var ki, Azərbaycanın yaşayış məntəqələrində bu muzdlularla yerli sakinlər arasında artıq bəzi toqquşmalar baş verib. Ona görə ki, bu muzdlular həmin kəndlərdə şəriət qanunları tətbiq etməyə çalışır, mağazalara girərək tələb edirlər ki, bu mağazalar alkoqollu məhsullar satışını dayandırsınlar və s. və ilaxır.

**Aparıcı:** *Cənab Paşinyan, indicə xəbər gəldi ki, Türkiyənin F-16 təyyarəsi Ermənistan silahlı qüvvələrinin Su-25 təyyarəsini vurub. Özü də bu xəbər Ermənistan Müdafiə Nazirliyinə istinadla gəlib ki, pilot həlak olub. Bu xəbər sizə məlumdurmu? Yəni, Ermənistan və Türkiyə təyyarələri artıq göydə toqquşur?*

**Nikol Paşinyan:** Bu, artıq faktdır və mənim dediyimi bir daha sübut edir. Bilirsinizmi aşkardır ki, həm Ermənistan, həm də Dağlıq Qarabağ erməniləri bilavasitə Türkiyənin təhdidi altındadırlar. Bizdə olan məlumata görə, Türkiyə bu münaqişəyə daha geniş qoşulmaq üçün bəhanə axtarır. Bizdə olan məlumata görə, onlar öz qoşunlarını Naxçıvana gətirmək üçün bəhanə axtarırlar. Bu, Azərbaycanın Türkiyə, Ermənistan və İranla həmsərhəd anklavıdır. Hərçənd bizdə məlumat var ki, Türkiyə Ordusunun bəzi bölmələri artıq oradadır. Ümumiyyətlə, burada heç bir sirr yoxdur. Ona görə ki, Türkiyə qoşunları artıq avqust ayından




Azərbaycandadırlar. Onlar birgə hərbi təlimlərə başlayıblar və bu məsələ həmin hərbi təlimlərin davamı kimi başlanıb.

**Aparıcı:** *Nikol Vovayeviç, indi artıq bir çox ekspertlər Dağlıq Qarabağda hazırda baş verənlərin hamısını çox sərt şəkildə ifadə və izah edirlər. Müharibə sözü səslənir. Bu sözdən istifadə etmək nə dərəcədə korrektdir, nə dərəcədə yerinə düşür və indi qan tökülməsinə son qoymaq və atəşi dayandırmaq üçün nə isə etmək olarmı?*

**Nikol Paşinyan:** Əlbəttə, sualınız korrektdir. Ona görə ki, müharibə gedir. Çoxlu dağıntılar, insan tələfatı var və olduqca çox sayda hərbi qulluqçu cəlb edilib. Bu, bizim üçün çox mühüm məqamdır. Bildiyiniz kimi, XX əsrin əvvəlində XX əsrin ilk soyqırımı baş verib. Bu, Osmanlı imperiyasında baş verib və bu soyqırımının qurbanı erməni xalqı olub. Ona görə biz hamımız bunu xalqımız üçün ekzistensial təhdid kimi qəbul edirik. Faktiki olaraq biz bunu erməni xalqına elan edilmiş müharibə kimi qəbul edirik. İndi bizim xalqımız, sadəcə, özünümüdafiə hüququndan istifadə etməyə məcburdur. Nə etmək olar? Beynəlxalq birlik Azərbaycanın təcavüzkar hərəkətini və təcavüzünü qətiyyətlə pisləməlidir. Türkiyənin hərəkətləri pislənməlidir. Tələb etmək lazımdır ki, Türkiyə ümumiyyətlə bu regiondan çıxsın. Ona görə ki, Türkiyənin Cənubi Qafqazda hərbi iştirakı heç bir yaxşı şey vəd etmir. Bu, münaqişənin daha da genişlənməsinə və bu hərbi əməliyyatların, bu müharibənin miqyasının artmasına gətirib çıxara bilər. İndi beynəlxalq birlik Türkiyəni Cənubi Qafqazdan çıxmağa məcbur etmək və Azərbaycanı təcavüzü, təcavüzkar hərəkətlərini, hərbi əməliyyatları dayandırmağa məcbur etmək üçün konkret səy göstərməlidir.

**Aparıcı:** *Cənab baş nazir, sizi daha ləngitməyəcəyik. Bilirik ki, siz hərbçilərlə müşavirəyə tələsməlisiniz. Çox qısa bir sual. Hazırda danışıqların hansı formatları işləyə bilər? Yoxsa bütün əvvəlki razılaşmalar artıq keçmişdə qalıb? Şərti mənada desək, sizin bir neçə rayonu azad etməyinizi nəzərdə tutan Kazan formatı, bütün bu razılaşmalar silinib, yoxsa həmin formatlar üzrə hələ hərəkət etmək olar?*

**Nikol Paşinyan:** Bilirsinizmi, danışıqların formatı məsələsinə gəldikdə, biz belə təsəvvür edirik ki, danışıqlar prosesi harada başlanmışdısa elə orada davam etməlidir. Bu, ATƏT-in Minsk qrupunun həmsədrliyi formatıdır. Konkret danışıqlara gəldikdə isə, danışıqlar üçün müvafiq şərait olmalıdır. Konkret hərbi əməliyyatlar getdiyi vaxtda danışıqlar barədə, xüsusən onların məzmunu barədə danışmaq çox çətindir. İlk növbədə, zorakılığı dayandırmaq və Azərbaycan bu formulu qəbul etməlidir ki, Dağlıq Qarabağ probleminin hərbi həlli yoxdur. Axı, bu müharibə sıfırdan başlamayıb. Azərbaycan hökuməti uzun müddətdir ermənilərə qarşı nifrət ritorikasını inkişaf etdirir və beynəlxalq çağırışlara rəğmən uzun müddətdir hədə-qorxu gəlir ki, Dağlıq Qarabağ məsələsini hərbi yolla həll etməyə hazırlaşır. Ümidvaram, heç olmasa indiki hadisələr və indi yaranmış vəziyyət Azərbaycanı inandıracaq ki, Dağlıq Qarabağ münaqişəsinin hərbi həlli yoxdur.

Ona görə ki, Azərbaycan Silahlı Qüvvələri öz vəzifələrini yerinə yetirə bilməyiblər. Mənə belə gəlir ki, hərbi-siyasi rəhbərlik hərbi mənada cəbhədə heç bir uğur qazana bilməyib. Yəni, onlar öz məsələsini həll edə bilməyiblər. Ümidvaram, bu, Azərbaycanı inandıracaq ki, bu münaqişənin hərbi həlli yoxdur. Dağlıq Qarabağ münaqişəsi üçün yalnız dinc və danışıqlar yolu ilə həll var. İstənilən həll təkcə Azərbaycan üçün deyil, həm də Ermənistan üçün, Dağlıq Qarabağ üçün məqbul olmalıdır. Qeyd etmək istəyirəm ki, mən baş nazir olanda bu münaqişənin həlli üçün konkret formul təklif edirdim və yenə davam edirəm, istənilən həll Ermənistan üçün, Dağlıq Qarabağ üçün və Azərbaycan üçün məqbul olmalıdır. Ölkələrin adlarının çəkilməsi ardıcıllığının heç bir mənası yoxdur. Mən onu nəzərdə tuturam ki, bu qərar eyni dərəcədə məqbul olmalıdır və təəssüf ki, Azərbaycan Hökuməti, Azərbaycan Prezidenti yalnız Azərbaycan üçün məqbul olan həllə nail olmaq istəyir. Bu, mümkün deyil. Kompromis lazımdır və kompromis üçün şərait lazımdır. Bunun üçün Azərbaycan Dağlıq Qarabağa və Ermənistana qarşı təcavüzü dərhal dayandırmalıdır. Çünki bunu Azərbaycan başlayıb. Yeri gəlmişkən, bu, əvvəlcədən planlaşdırılmış əməliyyat idi. Əsla şübhə yoxdur ki, bu əməliyyat Türkiyə Silahlı Qüvvələri ilə birgə hərbi təlimlər zamanı planlaşdırılıb. Sağ olun.

**Aparıcı:** *Çox sağ olun. Gəlin bunu əsas götürək ki, həll variantı Ermənistan və əlbəttə ki, Azərbaycan üçün həqiqətən məqbul olmalıdır. Münaqişənin həlli üçün heç bir hərb variantı yoxdur. Yalnız siyasət və diplomatiya. Sağ olun.*

* * * * *

Beynəlxalq ictimaiyyət qarşısında çıxış edərkən indiyədək dəfələrlə rəzil duruma düşən Nikol Paşinyan bu dəfə də ənənəsini pozmadı. Verilişin aparıcılarının sualları qarşısında aciz qalan Ermənistanın baş naziri yenə də çıxışında heç bir fakta əsaslanmayan yalan və uydurmalar söylədi.

Sonra müzakirələrdə siyasi və hərbi ekspertlər iştirak etdilər.

**“Natsionalnaya oborona” jurnalının baş redaktoru İqor Korotçenko:**

- Mən Azərbaycan və Ermənistan liderlərinin çıxışlarını diqqətlə dinlədim. İlham Əliyev şərtsiz olaraq dəqiq, tamamilə məntiqli, düzgün, ardıcıl çıxış etdi. Bu, MDBMİ məktəbidir. MDBMİ, doğrudan da, böyük kadrlar yetişdirir. İndi isə deyilənlərin mahiyyətinə gələk. Prezident Əliyev haqlıdır və tamamilə ədalətli olaraq dedi ki, peyk, elektron, kəşfiyyat texnologiyalarının müasir inkişaf səviyyəsini nəzərə alsaq, Azərbaycan ərazisinə, doğrudan da, türk qırıcıları göndərilsəydi, bu faktı gizlətmək mümkün deyildi. Bunu peyk kəşfiyyatı olan istənilən ölkə aşkar edə bilər. Bu gün isə Dağlıq Qarabağ bölgəsi dünyanın bütün aparıcı ölkələrinin sıx müşahidəsi altındadır. Həmkarlarımın diqqətini bir məqama çəkmək istərdim. Biz hamımız beynəlxalq hüququn tərəfdarıyıq. Beynəlxalq hüquq nöqteyi-nəzərindən, döyüş əməliyyatları Azərbaycanın ərazisində, Azərbaycan hərbi qüvvələri və erməni hərbi birləşmələri arasında aparılır.

# Azərbaycan Prezidenti İlham Əliyevlə BMT-nin Baş katibi Antonio Quterreş arasında videokonfrans formatında görüş olub



***Sentyabrın 28-də BMT-nin Baş katibi Antonio Quterreşin təşəbbüsü ilə onunla Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev arasında videokonfrans formatında görüş olub.***

Prezident İlham Əliyev Ermənistanın Azərbaycana qarşı törətdiyi hərbi təxribatla bağlı hadisələrin gedişinə dair məlumat verib. Qeyd edib ki, sentyabrın 27-də Ermənistan təmas xətti boyunca Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini və yaşayış məntəqələrimizi ağır artilleriyadan atəşə tutub və bunun nəticəsində mülki şəxslərimiz və hərbi qulluqçularımız həlak olublar. Azərbaycan tərəfi özünümüdafiə məqsədilə uğurlu əks-hücum əməliyyatları həyata keçirir.

Dövlətimizin başçısı vurğulayıb ki, Ermənistan tərəfi birinci dəfə deyil belə hərbi təxribatlar törədir. Belə ki, işğalçı ölkə bu ilin iyul ayında Azərbaycan-Ermənistan dövlət sərhədində buna oxşar təxribat həyata keçirib, avqust ayında isə erməni diversiya dəstəsi təmas xəttini keçməyə cəhd edib. Eyni zamanda, Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərinə başqa ölkələrdən xarici vətəndaşların qanunsuz məskunlaşmasını həyata keçirir ki, bu da Cenevrə Konvensiyasına görə beynəlxalq hüququn ciddi pozulmasıdır.

Dövlətimizin başçısı onu da qeyd edib ki, Ermənistanın baş naziri Azərbaycana qarşı hərbi əməliyyatlarda iştirak etməyə məcbur ediləcək on minlərlə mülki vətəndaşdan ibarət silahlandırılmış mülki könüllülər dəstələri yaradıb.

Dövlətimizin başçısı bildirib ki, Ermənistan rəhbərliyi şüurlu şəkildə danışıqlar prosesini pozur. Ermənistan rəhbərliyinin “Dağlıq Qarabağ Ermənistandır” bəyanatı danışıqlara ciddi zərbə vurub.

“Azərbaycan Dağlıq Qarabağla danışıqlar aparmalıdır” bəyanatı isə danışıqlar formatının dəyişdirilməsi cəhdidir ki, bu da qəbuledilməzdir və bu, Minsk qrupunun rəhbərliyi tərəfindən də bildirilib.

Prezident İlham Əliyev deyib ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal, qeyd-şərtsiz və tam çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında həll olunmalıdır.

# Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 25-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilsin.
2. Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti təsdiq edilmiş planlara uyğun olaraq hərbi vəzifəlilərin səfərbərlik üzrə hərbi xidmətə çağırılmasını və hərbi-nəqliyyat vəzifəsindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.
4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 28 sentyabr 2020-ci il**

# Komendant saatı necə tətbiq olunur?



2020-ci il sentyabr ayının 28-i saat 00:00-dan etibarən Azərbaycan Respublikasının bütün ərazisində hərbi vəziyyət elan olunmuş və bu dövrdə Bakı, Gəncə, Sumqayıt, Yevlax, Mingəçevir, Naftalan şəhərlərində, Abşeron, Cəbrayıl, Füzuli, Ağcabədi, Beyləqan, Ağdam, Bərdə, Tərtər, Goranboy, Göygöl, Daşkəsən, Gədəbəy, Tovuz, Şəmkir, Qazax və Ağstafa rayonlarında saat 21:00-dan ertəsi gün saat 06:00-dək komendant saatı tətbiq edilir.

DİN-in Mətbuat Xidmətindən bildirilib ki, komendant saatının qüvvədə olduğu müddətdə şəxslər hərbi vəziyyət rejiminin tətbiq edildiyi inzibati ərazi vahidlərində yalnız xidməti vəsiqə əsasında və “icaze.e-gov.az” portalında qeydiyyatdan keçib xüsusi icazə aldıqda hərəkət edə bilərlər.

Bununla əlaqədar komendant saatının tətbiq edildiyi şəhər və rayonlarda yaşayan yaxud həmin ərazilərə giriş-çıxış edən sakinlərdən və digər şəxslərdən gedəcəkləri ünvanadək olan məsafəni nəzərə alıb komendant saatı başlayanadək səfərlərini, öz işlərini başa çatdırmaq, eləcə də komendant saatı dövründə xüsusi icazə və şəxsiyyəti təsdiq edən sənəd olmadan yaşadıqları (qaldıqları) ünvanı tərk etməmək xahiş olunur.

Həmin müddətdə hərəkətinə xidməti vəsiqə əsasında icazə verilən dövlət orqanlarının əməkdaşlarının, habelə fəaliyyətinə icazə verilən sahələrin siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş, habelə Daxili İşlər Nazirliyi xüsusi icazələrin verilməsi qaydasını təsdiqləmişdir.

Xidməti vəsiqə əsasında və “icaze.e-gov.az” portalında qeydiyyatdan keçməklə hərəkətinə icazə verilmiş şəxslərin xidməti və fərdi nəqliyyat vasitələrindən istifadə etmələrinə yol verilir.

Komendant saatı müddətində tibb müəssisəsinə təcili tibbi yardım avtomobili ilə yaxud yaxın qohumları tərəfindən aparılan şəxslərin hərəkətinə şərait yaradılacaqdır.

# Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib

*Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib.*

**Prezident İlham Əliyevin xalqa müraciəti:**

- Bu gün səhər Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda, hərbi mövqelərimizi atəşə tutmuşdur.

Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar var. Allah şəhidlərimizə rəhmət eləsin! Onların qanı yerdə qalmayacaqdır. Azərbaycan Ordusu hazırda düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirir və bu zərbələr nəticəsində düşmənin bir çox hərbi texnikaları sıradan çıxıb. Bu, erməni faşizminin növbəti təzahürüdür.




Son vaxtlar Ermənistanın Azərbaycana qarşı hərbi təxribatları müntəzəm xarakter almışdır. İyul ayında Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində yenə də artilleriya atəşi nəticəsində hərbçilərimiz və bir mülki şəxs həlak olmuşdur. Heç kəsə sirr deyil ki, ilk atəşi, o cümlədən artilleriya atəşini Ermənistan açıbdır və ilk həlak olanlar da məhz Azərbaycan hərbçiləri olmuşdur. Azərbaycan düşmənə layiqli cavabını verdi və düşmən bir santimetr irəliyə gedə bilmədi. Düşmən dayandırıldı, ölkəmizin ərazi bütövlüyü qorundu. Sarsıdıcı zərbələr nəticəsində Ermənistan tərəfi məcbur olub acı məğlubiyyətlə razılaşdı. Mən bu barədə demişəm, bir daha demək istəyirəm, əgər bizim istəyimiz olsaydı, hərbi döyüşləri Ermənistan ərazisinə keçirə bilərdik. Ancaq bizim Ermənistan ərazisində hərbi hədəflərimiz yoxdur və belə olan halda bir neçə gündən sonra atəş dayandırılmışdır.

Ermənistan bu təxribatı törətməklə hansı məqsədi güdürdü? İlk növbədə, Azərbaycan torpaqlarının işğalı onların planındadır və onlar bunu gizlətmirlər. Onların hərbi-siyasi rəhbərliyi Azərbaycanı yeni işğalla hədələməyə çalışırdı, yeni ərazilər uğrunda yeni işğal siyasəti. Budur, bu gün Ermənistan hərbi-siyasi rəhbərliyinin siyasəti. Digər səbəb Ermənistanda mövcud olan çox ciddi sosial, iqtisadi və siyasi məsələlərdən ölkə əhalisinin fikrini yayındırmaq və Azərbaycandan düşmən obrazı yaratmaqdır. Daha bir səbəb isə ondan ibarətdir ki, Ermənistan hər vəchlə çalışır ki, danışıqlar prosesi pozulsun və deyə bilərəm ki, buna nail olub. Məhz Ermənistanın riyakar, qeyri-konstruktiv və yalançı siyasəti nəticəsində hazırda danışıqlar faktiki olaraq dayanıbdır. Növbəti təxribatın törədilməsi məhz bu məqsədləri güdür və bu məqsədlər onlar üçün əsas məqsədlərdir.

**İyul ayında Azərbaycan düşmənə layiqli cavabını verdi, öz ərazi bütövlüyünü qorudu və bir daha göstərdi ki, Azərbaycanla hədə-qorxu dili ilə danışan bundan peşman olacaqdır. Əfsuslar ki, bu, onlar üçün dərs olmadı. Halbuki mən iyul təxribatından sonra demişdim ki, Ermənistanın bu acı məğlubiyyəti onlar üçün dərs olmalıdır.**

Avqust ayında Ermənistan növbəti hərbi təxribata əl atdı. Bu dəfə Azərbaycana diversiya qrupu göndərilmişdir. Diversiya qrupunun başçısı Azərbaycan hərbçiləri tərəfindən saxlanılmışdır və hazırda ifadələr verir. Bu ifadələrdə açıq-aydın göstərilir ki, bu planlaşdırılmış təxribatçı diversiya qrupu Azərbaycana terror aktları törətmək üçün gəlmişdir. Mülki əhaliyə və hərbçilərimizə qarşı növbəti hərbi təxribat bu gün Ermənistan tərəfindən törədildi və qeyd etdiyim kimi, bu dəfə də onlar öz cəzasını alıblar və alacaqlar.

Ermənistanın təxribatları, eyni zamanda, Ermənistan rəhbərliyi tərəfindən verilən bəyanatlarda da öz əksini tapır. Ermənistanın baş naziri bir il bundan əvvəl işğal edilmiş torpaqlarda - Xankəndidə demişdir ki, "Qarabağ Ermənistandır və nöqtə". Birincisi bu, yalandır, Qarabağ Azərbaycandır və mən bu məsələ ilə bağlı öz fikirlərimi dəfələrlə bildirmişəm. Qarabağ Azərbaycandır və nida işarəsi. İkincisi, bu təxribat xarakterli bəyanat faktiki olaraq danışıqlar prosesinə vurulan böyük zərbə idi. Əgər Ermənistanın baş naziri deyirsə ki, "Qarabağ Ermənistandır", onda hansı danışıqlardan söhbət gedə bilər?! Bununla paralel olaraq, Ermənistanın rəhbərliyi artıq iki il ərzində dəfələrlə bəyan edir ki, Azərbaycan Ermənistanla yox, qondarma "Dağlıq Qarabağ respublikası" ilə danışıqlar aparmalıdır. Bu da danışıqlar prosesinə vurulan böyük zərbədir. İlk növbədə, Azərbaycan heç vaxt oyuncaq xunta rejimi ilə hər hansı bir danışıqlar aparmayacaq. İkincisi, danışıqlar formatını dəyişdirmək cəhdləri bir daha onu göstərir ki, Ermənistanın əsas məqsədi danışıqları pozmaq və status-kvonu saxlamaqdır. Halbuki ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçıları dəfələrlə bəyan etmişlər ki, status-kvo qəbul edilməzdir və bu, o deməkdir ki, işğala son qoyulmalıdır.

**Ermənistanın bizə qarşı təxribatları bu faktlarla bitmir. Bu yaxınlarda bizim qədim Azərbaycanın qədim şəhəri olan Şuşada qondarma kriminal xunta rejiminin başçısının "andiçmə" mərasimi keçirilmişdir. Bu, təxribat deyilmi? Bu, bizə qarşı təhqirdir. Onlar hesab edirdilər ki, biz bu təhqirlə barışacağıq, razılaşacağıq. Onlar bizi şüurlu şəkildə təxribatlara çəkirlər və bunun acı nəticələrini görəcəklər.**

Bu yaxınlarda qondarma "Dağlıq Qarabağ respublikası" parlamentinin qədim Azərbaycan şəhəri - Şuşaya köçürülməsi haqqında qərar qəbul edildi. Bu, növbəti təxribatdır. Bu yaxınlarda Ermənistanın baş naziri bəyan etmişdir ki, on minlərlə insanı birləşdirən "könüllü" hərbi birləşmələr yaradılacaqdır. Bu, nə üçün lazımdır? Bunlar kimə qarşı vuruşacaqlar? Bu, Azərbaycana qarşı bu gün törədilən təxribatın hazırlıq mərhələsi idi. Mən artıq bir neçə dəfə demişdim, o cümlədən bu yaxınlarda BMT kürsüsündən demişdim ki, Ermənistan yeni müharibəyə hazırlaşır, Ermənistan dayandırılmalıdır və dayandırılacaqdır.

Ermənistan işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma siyasəti aparır. Bu yaxınlarda Livan ermənilərindən ibarət bir neçə ailə Dağlıq Qarabağa, o cümlədən Azərbaycanın qədim şəhəri olan Şuşaya yerləşdirildi. Bu, hərbi cinayətdir. Bu, Cenevrə Konvensiyasına tamamilə ziddir. Bu cinayətə görə Ermənistan cavab verəcəkdir. Bu, bizə qarşı növbəti təxribatdır. İşğal edilmiş torpaqlarda məskunlaşma aparmaq cinayət hesab olunur və bu siyasət Ermənistan tərəfindən uzun illər ərzində aparılır. İş burasındadır ki, Ermənistanda mövcud olan ağır iqtisadi, siyasi və sosial vəziyyətə görə ölkə əhalisi azalır. Ermənistanda demoqrafik böhran yaşanır və onlarda insan resursları yoxdur ki, işğal edilmiş torpaqlarda öz adamlarını yerləşdirsinlər. Ona görə xaricdə yaşayan ermənilərə ümid edirlər. Hazırda bu siyasət davam etdirilir. Bununla paralel olaraq, bizdə olan dəqiq məlumata görə, bizim işğal edilmiş bəzi ərazilərimizdə Ermənistan qanunsuz məskunlaşma aparıbdır. Bizim rayonlarımızın, kəndlərimizin adları dəyişdirilir. Azərbaycanlıların tarixi irsi silinir. Bizim tarixi abidələrimiz dağıdılır. Azərbaycan məscidləri dağıdılır, təhqir edilir. Bizim məscidlərimizdə Ermənistan inək, donuz saxlayır. Bu, bütün müsəlman aləminə ən böyük təhqirdir. Bizim əcdadlarımızın qəbirləri traktorla dağıdılır. Bunu edən faşistlərdir, vandallardır, vəhşilərdir.

Eyni zamanda, işğal edilmiş torpaqlarda bu yaxınlarda keçirilmiş hərbi təlimlər bizim üçün Ermənistanın növbəti təxribatı sayılmalıdır. Çünki bu təlimlərin bir məqsədi var: Azərbaycana hücum etmək, mülki əhalini atəşə tutmaq və yeni torpaqları işğal etmək!

**Sadaladığım bütün faktlar bir daha onu göstərir ki, bu gün regionda təhlükə mənbəyi Ermənistandır və onun çirkin siyasətidir.**

Azərbaycan heç bir təxribata əl atmamışdır. Azərbaycan, sadəcə olaraq, öz maraqlarını müdafiə edir, öz mövqeyini dəstəkləyir və öz siyasətini alnıaçıq aparır. **Biz dəfələrlə bəyan etmişik ki, Dağlıq Qarabağ əzəli tarixi Azərbaycan torpağıdır və bu, həqiqətdir. Ermənistanın baş naziri deyəndə "Qarabağ Ermənistandır", bu, yalandır. Mən deyəndə ki, "Qarabağ Azərbaycandır", bu, həqiqətdir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Tarixi ədalət bizim tərəfimizdədir. Çünki bu, bizim doğma, dədə-baba torpağımızdır. Beynəlxalq hüquq bizim tərəfimizdədir.** Bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Bütün ölkələr Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Beynəlxalq təşkilatlar çərçivəsində qəbul edilmiş qərar və qətnamələr Dağlıq Qarabağın Azərbaycana məxsus olduğunu açıq-aydın təsbit edir. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsində deyilir ki, erməni silahlı qüvvələri dərhal, tam və qeyd-şərtsiz işğal edilmiş torpaqlardan çıxarılmalıdır. Otuz ilə yaxındır ki, bu qətnamələr kağız üzərində qalır. Otuz ilə yaxındır ki, Minsk qrupu çərçivəsində danışıqlar aparılır və bunun sonunda Ermənistan müntəzəm olaraq hərbi təxribatlar törətməklə danışıqlar prosesini iflic vəziyyətə salıbdır. BMT-dən başqa bütün digər aparıcı beynəlxalq təşkilatlar bizim haqlı mövqeyimizi müdafiə edir. Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisatdır ki, bu gün Azərbaycan bu təsisata sədrlik edir. **Onlar münaqişə ilə bağlı ədalətli qətnamə qəbul etmişlər. İslam Əməkdaşlıq Təşkilatı ədalətli qətnamələr qəbul etmişdir. ATƏT-in qərarları, Avropa Parlamentinin qətnamələri bizim mövqeyimizi dəstəkləyir. Bizim mövqeyimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?!** Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, "Dağlıq Qarabağ ordusu"nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır.

**Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!**

# Qardaşlığın əsl nümayişi



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 29-da Pakistan İslam Respublikasının ölkəmizə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bilal Hayenin etimadnaməsini qəbul edib.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət edib.

**Dövlətimizin başçısını salamlayan səfir Bilal Haye deyib:**

- Qardaş Azərbaycan xalqının Pakistan xalqı üçün xüsusi yeri var. Sizin də bildiyiniz kimi, Pakistan qardaş Azərbaycan xalqını Dağlıq Qarabağ məsələsində həmişə dəstəkləmişdir. Bizim qəlbimiz Azərbaycan xalqı ilədir. Cənab Prezident, rəhbərliyimiz tərəfindən mənə Azərbaycanla iqtisadi əməkdaşlığın dərinləşməsi, müdafiə sahəsində münasibətlərin gücləndirilməsi və iki ölkə xalqlarının daha da yaxınlaşdırılması istiqamətində çalışmaq tapşırılmışdır. Sizi əmin edirəm ki, bu vəzifələrin yerinə yetirilməsi üçün əlimdən gələni edəcəyəm.

**Prezident İlham Əliyev deyib:**

-Xoş gəlmisiniz, cənab səfir. Sizi görməyə çox şadam. Sizə ölkəmizdə yaxşı vaxt keçirməyi arzu edirəm.

Bildiyiniz kimi, Azərbaycan bütün məsələlərdə və Kəşmir məsələsində həmişə Pakistanı dəstəkləyir. Bu qarşılıqlı dəstək bizim əməkdaşlığımızın qardaşlıq xüsusiyyətini əks etdirir. Əminəm ki, Azərbaycandakı fəaliyyətiniz zamanı ölkələrimiz arasında münasibətlər daha da güclənəcək. Sizin də qeyd etdiyiniz kimi, ikitərəfli əlaqələrdə siyasi sahədən əlavə biz iqtisadi məsələlər üzərində diqqətimizi cəmləşdirməliyik.

Biz Azərbaycanın ərazi bütövlüyü məsələləri ilə bağlı Pakistanın qətiyyətli mövqeyinə görə minnətdarıq. Pakistan Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsinə görə Ermənistanı tanımayan ölkədir. Bu, qardaşlığın əsl nümayişidir. Bütün hallarda Pakistan həmişə bizim yanımızdadır və mən buna görə minnətdaram.

Mən bir daha Pakistandakı qardaşlarımıza minnətdarlığımı bildirmək istərdim. Biz bu dəstəyi hiss edirik. Biz əməkdaşlığımızın bütün illəri boyunca bu dəstəyi hiss edirik.

# Prezidentin Mətbuat Xidmətinin məlumatı

Sentyabrın 27-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Türkiyə Prezidenti Ermənistanın hərbi təxribatı nəticəsində Azərbaycan mülki şəxslərinin və hərbi qulluqçularının həlak olması ilə əlaqədar dövlətimizin başçısına və Azərbaycan xalqına başsağlığı verib, onlara Allahdan rəhmət diləyib. Rəcəb Tayyib Ərdoğan həmişə olduğu kimi, bu gün də Türkiyənin Azərbaycanın yanında olduğunu vurğulayıb.

Başsağlığına görə minnətdarlığını bildirən dövlətimizin başçısı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Türkiyə Prezidentinin daimi dəstəyini yüksək qiymətləndirib.

Dövlət başçıları dost və qardaş Azərbaycanla Türkiyə arasında münasibətlərin bundan sonra da uğurla inkişaf edəcəyinə əmin olduqlarını bildiriblər.

* * *

Sentyabrın 27-də Fransa Respublikasının Prezidenti Emmanuel Makron Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Emmanuel Makron Ermənistan-Azərbaycan təmas xəttində silahlı qarşıdurmanın baş verməsindən ölkəsinin narahatlıq hissi keçirdiyini qeyd edib və münaqişənin danışıqlar yolu ilə həll olunmasının vacibliyini vurğulayıb.

Dövlətimizin başçısı qeyd edib ki, Ermənistan rəhbərliyi şüurlu şəkildə danışıqlar prosesini pozur. Ermənistan rəhbərliyinin "Dağlıq Qarabağ Ermənistandır" bəyanatı danışıqlara ciddi zərbə vurub. "Azərbaycan Dağlıq Qarabağla danışıqlar aparmalıdır" bəyanatı isə danışıqlar formatının dəyişdirilməsi cəhdidir ki, bu da qəbuledilməzdir və bu, Minsk qrupunun rəhbərliyi tərəfindən də bildirilib.

Telefon söhbəti zamanı tərəflər diplomatik kanallar vasitəsilə təmasların həyata keçirilməsi barədə razılığa gəliblər.

* * *

Sentyabrın 29-da Almaniya Kansleri Angela Merkel Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Angela Merkel Ermənistan-Azərbaycan təmas xəttində silahlı qarşıdurmanın baş verməsi ilə bağlı ölkəsinin narahatlığını ifadə edib və hadisələrin gedişi ilə maraqlanıb.

Dövlətimizin başçısı qeyd edib ki, sentyabrın 27-də, səhər saatlarında Ermənistan Azərbaycana qarşı hərbi təxribat törədərək, ağır artilleriya qurğularından təmas xətti boyu yerləşən hərbi birləşmələrimizi, şəhər və kəndlərimizi atəşə tutması nəticəsində iki gün ərzində hərbçilərimiz, 10 mülki şəxs, o cümlədən iki uşaq həlak olub, 29 mülki şəxs yaralanıb, 150 yaşayış evi dağıdılıb. Azərbaycan tərəfi əks-hücum əməliyyatına başlayıb.

Azərbaycan Prezidenti qeyd edib ki, Ermənistan baş nazirinin "Qarabağ Ermənistandır və nöqtə" bəyanatı danışıqlar prosesini mənasız edir və Ermənistan rəhbərliyinin Azərbaycandan dırnaqarası "Dağlıq Qarabağ respublikası" ilə danışıqlar aparması tələbi danışıqlar formatının dəyişdirilməsi cəhdi kimi qiymətləndirilməlidir. Dövlətimizin başçısı, eyni zamanda, bildirib ki, Ermənistanın müdafiə naziri yeni torpaqlar uğrunda yeni müharibə ilə Azərbaycanı hədələyib və bu plan reallıqda həyata keçirilir.

* * *

Sentyabrın 29-da Qətər dövlətinin Əmiri Təmim bin Həməd Al Tani Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Söhbət zamanı iki ölkə arasında ikitərəfli münasibətlərlə bağlı məsələlər müzakirə edilib. Qətər dövlətinin Əmiri və Azərbaycan Respublikasının Prezidenti, eyni zamanda, Ermənistanla Azərbaycan arasında yaranmış gərginliyə dair məsələləri də müzakirə ediblər. Bu baxımdan Qətər dövlətinin Əmiri vəziyyəti sakitləşdirməyə, hər iki ölkənin və xalqın maraqlarının qorunması yolu ilə dialoq və diplomatik vasitələrlə iki ölkə arasında olan mübahisənin həlli üzərində işləməyə çağırıb.

# "Xüsusi Sessiya pandemiyanın yaratdığı fəsadların aradan qaldırılması səylərinə töhfə verəcəkdir"




*Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 29-da "COVID-19 dövrü və sonrakı dönəmdə Dayanıqlı İnkişaf Məqsədlərinin 2030-cu il Gündəliyinin maliyyələşdirilməsi" mövzusunda dövlət və hökumət başçılarının toplantısında deyib.*

**Dövlət başçısı bildirib:** - Azərbaycan "Dayanıqlı İnkişaf Məqsədləri"nin icrasına mühüm əhəmiyyət verir. Biz 2016-cı ildə əsas vəzifəsi milli prioritetlərin müəyyən edilməsindən, müxtəlif dövlət proqram və strategiyalarının "Dayanıqlı İnkişaf Məqsədləri" ilə uzlaşdırılmasından ibarət olan Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası təsis etmişik.

Azərbaycan "Minilliyin İnkişaf Məqsədləri"nə nail olmuş, "Dayanıqlı İnkişaf Məqsədləri"nin icrasında isə ciddi irəliləyiş əldə etmişdir.

Bizim nailiyyətimiz "2020-ci il üzrə Dayanıqlı İnkişaf Hesabatı"nda əks olunmuşdur. Belə ki, oradakı "Dayanıqlı İnkişaf Hədəfləri İndeksi"nə görə Azərbaycan 166 ölkə arasında 54-cü pillədə qərarlaşmışdır.

Azərbaycan BMT-yə iki dəfə könüllü milli hesabat təqdim edən azsaylı ölkələrdən biridir.

Azərbaycanın iqtisadiyyatı sürətlə inkişaf etmişdir. Son 17 il ərzində ümumi daxili məhsul 3 dəfə artmışdır. Azərbaycanda yoxsulluq son 17 il ərzində 49 faizdən 5 faizə enmişdir.

Azərbaycanın xarici dövlət borcu dünyada ən aşağı səviyyələrdədir, ümumi daxili məhsulun təqribən 20 faizini təşkil edir. Bu göstəriciyə görə Azərbaycan dünyada 9-cu yerdədir. Neft ixrac edən dövlətlər arasında ən az xarici dövlət borcu olan Azərbaycandır.

Azərbaycanın valyuta ehtiyatları xarici dövlət borcundan 6 dəfə çoxdur.

Son 17 ildə Azərbaycanın iqtisadiyyatına 260 milyard dollardan çox sərmayə yatırılmışdır. Beynəlxalq Valyuta Fondunun statistikasına görə, hazırda Azərbaycan iqtisadiyyatı alıcılıq qabiliyyəti paritetinə görə Cənubi Qafqaz regionunun ümumi iqtisadiyyatının 70 faizini təşkil edir.

Azərbaycan enerji sahəsindən əldə olunan gəlirlərin indiki və gələcək nəsillər arasında ədalətli bölgüsünə xüsusi əhəmiyyət verir. Bu məqsədlə 1999-cu ildə Dövlət Neft Fondu yaradılmışdır. Yaranma vaxtı aktivlərinin 270 milyon dollar təşkil etdiyi Fondun bu günə olan aktivlərinin həcmi ölkənin ümumi daxili məhsulunu üstələyir. Azərbaycan gəlirlərin ədalətli bölgüsünün səviyyəsinə görə dünya üzrə ən yüksək pillələrdədir.

Torpaqlarımızın Ermənistan tərəfindən işğalı nəticəsində meydana gəlmiş çətinliklər səbəbindən Azərbaycan müstəqilliyinin ilk illərində beynəlxalq ictimaiyyətdən humanitar yardım qəbul edirdi. Daha sonra isə Azərbaycan özü donor ölkəyə çevrildi. Son 15 ildə Azərbaycan 120-yə yaxın ölkəyə maliyyə və humanitar yardımı göstərmişdir.

**COVID-19 pandemiyası dünyanın bütün ölkələrinə mənfi təsir göstərmişdir. Milyonlarla insanın kəskin yoxsulluq vəziyyətinə düşəcəyi gözlənilir.**

Pandemiya bizim iqtisadiyyata da təsir etmişdir. Pandemiya dövründə dövlət gəlirlərinin azalmasına baxmayaraq, hökumət iş yerlərinin və səhiyyənin qorunması, habelə iqtisadi inkişafı təmin etmək məqsədilə ümumi daxili məhsulun 3 faizi həcmində maliyyə vəsaiti ayırmışdır.

Pandemiyanın fəsadlarının aradan qaldırılması, iqtisadi sabitlik, makroiqtisadi və maliyyə dayanıqlığının təmin edilməsi, işsizlik probleminin həlli məqsədilə 2 milyard dollar həcmində iqtisadi-sosial yardım paketi təqdim edilmişdir. Sosial dəstək tədbirləri təqribən 5 milyon vətəndaşı, yəni, ölkə əhalisinin yarısını əhatə edir.

Pandemiya ilə mübarizənin maliyyələşdirilməsi xarici maliyyə yardımı olmadan, yalnız daxili mənbələr hesabına həyata keçirilir. Bundan əlavə, Azərbaycan COVID-19 ilə bağlı 30-dan çox ölkəyə humanitar və maliyyə yardımı göstərib.

Pandemiyadan sonrakı dövrdə bizim əsas prioritetlərimiz – iqtisadi inkişafı, iqtisadi və maliyyə sabitliyini təmin etmək, sağlam və rəqabətqabiliyyətli insan kapitalını daha da inkişaf etdirmək, dayanıqlı iş yerləri yaratmaq və iqtisadi fəaliyyətin yeni sahələrini inkişaf etdirməkdən ibarətdir.

Bəşəriyyət pandemiyaya qarşı mübarizə və onun fəsadlarının aradan qaldırılmasına yalnız həmrəylik və birgə səylər sayəsində nail ola bilər. Qoşulmama Hərəkatının sədri qismində Azərbaycan BMT Baş Assambleyasının koronavirusa qarşı mübarizə üzrə Xüsusi Sessiyasının keçirilməsini təklif etmişdir. Bu təşəbbüs BMT-nin üzvü olan 130-dan çox ölkə tərəfindən dəstəkləndi.

İnanıram ki, Xüsusi Sessiya pandemiyanın təsir etdiyi bütün sahələrin kompleks şəkildə müzakirə olunmasında çərçivə rolunu oynayacaq və onun yaratdığı fəsadların aradan qaldırılması səylərinə töhfə verəcəkdir.

**AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısının çıxışı 2020-ci il 25 sentyabr tarixində çəkilib.**

# Prezident İlham Əliyev və Mehriban Əliyeva yaralı hərbçilərlə görüşüblər



Sentyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ermənistanın sentyabrın 27-dən başlayan hərbi təxribatı zamanı yaralanan və Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan hərbçilərlə görüşüblər.

Bu barədə Azərbaycan Prezidentinin Mətbuat Xidməti məlumat yayıb.

# Azərbaycanda xüsusi karantin rejiminin müddəti uzadıldı

Baş Nazir Əli Əsədov "Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması barədə" qərar imzalayıb.

Qərara əsasən, koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2020-ci il 2 noyabr saat 06:00-dək uzadılıb.



# Malayziya XİN Azərbaycanın ərazi bütövlüyünü dəstəklədi

Malayziya Xarici İşlər Nazirliyi (XİN) 27 sentyabr tarixindən başlayaraq Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi növbəti hərbi təxribatla bağlı bəyanat yayıb.

Bu barədə Azərbaycanın Malayziyadakı səfirliyindən məlumat verilib.

Bəyanatda Azərbaycanın ərazi bütövlüyü ilə bağlı birmənalı mövqe nümayiş etdirilib.

Bildirilib ki, Malayziya 27 sentyabr tarixində yenidən başlayan gərgin hərbi qarşıdurma nəticəsində Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda pisləşən təhlükəsizlik vəziyyətindən dərindən narahatlıq keçirir.

Qeyd olunub ki, Malayziya münaqişənin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri daxil olmaqla beynəlxalq hüquq əsasında sülh yolu ilə həllinin tapılmasına yönəlmiş bütün səyləri dəstəkləyir.



# "Biz Azərbaycanın ərazi bütövlüyünü davamlı olaraq dəstəkləyirik"



"Biz Azərbaycanın ərazi bütövlüyünü davamlı olaraq dəstəkləyirik. Bu prinsip bizim üçün tamamilə dəyişməz olaraq qalır"

Bunu Ukraynanın Xarici İşlər naziri Dmitro Kuleba onlayn brifinqdə deyib.

"Biz hamımız Dağlıq Qarabağdakı hadisələrin inkişafını müşahidə edirik. Ukrayna Xarici İşlər Nazirliyi (XİN) vəziyyətin kəskinləşməsi ilə bağlı mövqeyini ilk bildirənlərdən oldu. Bu hadisələri izləməyə davam edirik, koordinasiya olunmuş mövqeyə sahib olmaq üçün tərəfdaşlarla danışıqlar aparırıq. Azərbaycan Xarici İşlər naziri ilə telefon danışığımız olub. Mövqeyimiz çox aydındır. Müharibə hər zaman kədər, qurbanlar, məhv deməkdir. Hazırda Qafqazda bu kimi hadisələrin baş verdiyi üçün çox təəssüflənirik. Mövcud vəziyyət göstərir ki, "dondurulmuş münaqişələr" həqiqətən dondurulmayıb və hər an püskürə bilər. Bunlar Avropadakı qeyri-sabitlik ocaqlarıdır və beynəlxalq ictimaiyyət onların nizamlanmasına müvafiq qaydada yanaşmalı və bunun üçün ardıcıl və sistemli səy göstərməlidir. Ukraynanın xarici siyasətinin təməl daşlarından biri dövlətlərin ərazi bütövlüyünü dəstəkləməkdir. Azərbaycan beynəlxalq səviyyədə tanınmış sərhədlər daxilində ərazi bütövlüyümüzü dəstəklədiyi kimi, biz də Azərbaycanın ərazi bütövlüyünü davamlı olaraq dəstəkləyirik. Bu prinsip bizim üçün tamamilə dəyişməz olaraq qalır", – deyə Ukraynanın XİN başçısı vurğulayıb.

# TAP-la Azərbaycan təbii qazının İtaliyaya nəqli ilin sonunadək başlayacaq

Trans Adriatic Pipeline

Azərbaycan təbii qazının TAP boru kəməri ilə İtaliyaya nəqlinin cari ilin sonunadək başlaması gözlənilir.

Bu barədə TAP-ın icraçı direktoru Luca Schieppati "Italian Energy Summit 2020"də deyib.

O bildirib ki, Azərbaycan qazını Avropaya çatdıracaq TAP boru kəməri layihəsi üzrə işlərin - mühəndis, təchizat və tikinti işləri də daxil olmaqla təxminən 98 faizi yekunlaşıb. İlin sonunadək qaz nəqli mümkün olacaq və nəhayət biz Cənub Qaz Dəhlizini açacağıq.

"Hazırda Ermənistan və Azərbaycan arasında Dağlıq Qarabağ bölgəsindəki gərginlik TAP-la təbii qaz tədarükünə hər hansı risk yaratmır. Çünki dəhliz ən kritik ərazidən uzaqdır. Boru kəmərinin inşasının ölkələri birləşdirəcək bir element olduğuna inanıram", - deyə L.Schieppati qeyd edib.

Qeyd edək ki, TAP boru kəmərinin tikintisi mərhələsini başa çatdırmağa yaxınlaşır. Kommersiya istismarına başlamağa hazırlıq, sınaq və istismara vermə mərhələsi çərçivəsində boru kəmərinin Yunanıstan-Türkiyə sərhədindən Albaniyanın Fier şəhərindəki kompressor stansiyasına qədər olan hissəsi təbii qazla doldurulub.

Boru kəmərində son qaynaq yekunlaşıb. Bu da o deməkdir ki, TANAP boru kəmərinə qoşulan hissədən İtaliyadakı qəbul terminalınadək 878 kilometrlik boru kəməri artıq birləşib. Bu, Cənub Qaz Dəhlizinin açılması istiqamətində daha bir mərhələdir.

İyunda TAP-ın Adriatik dənizindən keçən 105 kilometrlik hissəsinin inşası müvəffəqiyyətlə tamamlanıb.

TAP layihəsi çərçivəsində Yunanıstanda sınaq işləri də tamamlanıb. Mayın 20-dən isə təbii qazın TAP-ın Albaniyadakı 4 kilometrlik hissəsinə - Yunanıstan-Albaniya sərhədində və Bilisht regionunun yaxınlığındakı ölçmə stansiyasına nəqlinə başlanılıb.

# Президент Азербайджана Ильхам Алиев ответил на вопросы в программе «60 минут» телеканала «Россия-1»




***29 сентября в программе «60 минут», транслируемой по телеканалу «Россия-1», вышла в эфир передача, посвященная последним событиям на азербайджано-армянской линии соприкосновения войск.***

В передаче Президент Азербайджана Ильхам Алиев и премьер-министр Армении Никол Пашинян ответили на вопросы ведущих.

Ведущий передачи первым адресовал вопросы Президенту Азербайджана Ильхаму Алиеву.

**Ведущий:** *Спасибо, господин Президент, что согласились на это интервью. Что прямо сейчас происходит на фронте? Уже поступает информация об использовании авиации.*

**Президент Ильхам Алиев:** На фронте ситуация напряженная. В результате армянской военной провокации, которая началась утром 27 сентября, были подвергнуты массированному артиллерийскому обстрелу населенные пункты Азербайджана и наши боевые позиции. В результате этой агрессии 11 мирных жителей Азербайджана, включая 2 детей, погибли, также есть жертвы среди военнослужащих. Мы вынуждены были дать адекватный ответ агрессору и таким образом защитить свой народ, своих людей и свою землю. Таким образом, уже третьи сутки идут ожесточенные бои, в результате которых Азербайджанская армия освободила ряд населенных пунктов от оккупации, а также заняла стратегические высоты в разных направлениях. На сегодняшний день ситуация такова, что активные боевые действия ведутся.

**Ведущий:** *Ильхам Гейдарович, проясните нам, пожалуйста, роль Турции. Анкара официально в лице Президента и руководителей МИД заявила о том, что поможет вам на поле боя.*

**Президент Ильхам Алиев:** Роль Турции, я считаю, носит стабилизирующий характер в регионе. Турция - наша братская страна и наш союзник. И с самого первого часа как мировая общественность узнала о том, что Армения напала на Азербайджан, Турция на уровне главы государства и других руководителей высказалась однозначно в поддержку Азербайджана, в поддержку международного права. Потому что Армения грубо нарушает международное право, оккупируя территорию Азербайджана на протяжении около 30 лет. В этом, собственно, и заключается роль Турции, больше ни в чем. Турция оказывает нам моральную поддержку, и мы благодарны турецкому руководству, Президенту и турецкому народу за солидарность и за поддержку нам. Ни в каком другом качестве Турция в данном конфликте не участвует. И все слухи о том, что Турция участвует как сторона конфликта, которые распространяются с армянской стороны, носят провокационный характер. Как это принято сейчас говорить, это фейк ньюс. Нет ни одного свидетельства участия Турции в конфликте и нет такой необходимости. Азербайджанская армия достаточно подготовлена для того, чтобы обеспечить защиту своего народа и своей территории.

**Ведущий:** *Ильхам Гейдарович, таким образом, Вы не подтверждаете, более того, опровергаете информацию о том, что буквально час назад турецкие ВВС сбили самолет армянских ВВС. Речь шла об F-16 и Су-25.*

**Президент Ильхам Алиев:** Мы этой информацией не владеем. Буквально недавно мне доложили о том, что такая новость появилась в информационном пространстве. Она ничем не подтверждена. Самолеты F-16 турецких ВВС никоим образом не участвуют в боевых действиях. Сегодня, знаете, с учетом современных технологий очень трудно что-то скрыть, потому что есть объективные формы наблюдения, есть спутниковые наблюдения и поэтому очень легко проверить, что это очередная провокация. Нам понятна цель армянской стороны - создавая такие ложные новости, во-первых, принизить боеспособность Азербайджанской армии, которая с честью сейчас выполняет задачу по восстановлению своей территориальной целостности, а также создать впечатление, что конфликт разрастается, в него подключаются третьи страны, и тем самым попытаться привлечь как можно больше стран для того, чтобы оправдать свою провокацию. Поэтому ответственно вам заявляю: Турция не является стороной конфликта, никоим образом в нем не участвует, и никакой необходимости в этом нет.

**Ведущий:** *Ильхам Гейдарович, готова ли Ваша страна к движению в сторону Казанской формулы, в рамках которой Армения должна освободить несколько районов, или любой другой формулы? Что сейчас в принципе можно предпринять? Как переломить ситуацию, если конфликт в Карабахе и Карабах на протяжении аж 30 лет то горит, ну, или тлеет? Что делать?*

**Президент Ильхам Алиев:** Вы знаете, Азербайджан всегда проявлял конструктивность на переговорном треке. И сопредседатели Минской группы, которые ответственны за посредническую миссию, это могут подтвердить. В том числе за последние два года я неоднократно и на уровне других ответственных лиц мы заявляли, что мы привержены принципам урегулирования, которые выработаны годами и которые Минская группа и ее сопредседатели считают основой для переговорного процесса. Более того, мы заявляли неоднократно в последние два года и до этого, что мы привержены и формату переговоров. Переговоры ведутся между Арменией и Азербайджаном. Есть только две стороны конфликта. Иной раз, когда говорится о конфликте, говорят все стороны. Это неправильное определение. Нет всех сторон. Есть только две - Армения и Азербайджан. Но что происходило за последние годы, после Соросовского переворота, который совершила нынешняя власть в Армении. Армянский премьер-министр публично заявляет, что Карабах – это Армения, и точка. В таком случае о каком переговорном процессе может идти речь? Ведь суть выработанных Минской группой ОБСЕ принципов заключается в том, что территории вокруг бывшей Нагорно-Карабахской автономной области должны быть переданы Азербайджану. А если он говорит, что Карабах – это Армения и вдобавок к тому, что мы должны вести переговоры с так называемым марионеточным режимом Нагорного Карабаха, тем самым пытается поломать формат переговоров, который уже существует 20 лет, так значит Армения сознательно нарушает переговорный процесс, выдвигает неприемлемые требования, и когда Минская группа уже в последнее время начинает более активно говорить о том, кто же все-таки является препятствием для урегулирования, вот делают такие провокации, как 27 сентября. А до этого 12 июля наши позиции были атакованы на государственной границе. А после этого - 23 августа, когда диверсионная группа Армении была захвачена, ее главарь был захвачен на линии соприкосновения. Все делается для того, чтобы сорвать переговорный процесс. Потом обвинить Азербайджан, потом вовлечь третьи стороны и тем самым сорвать переговорный процесс. Потому что армянская сторона хочет сохранить статус-кво. А сопредседатели Минской группы ОБСЕ в лице глав государств России, Франции и США делали неоднократные заявления о том, что статус-кво неприемлем. А это значит, что территории под оккупацией должны быть возвращены Азербайджану. Мы привержены переговорам, но с армянской стороны видим совершенно противоположные действия.

**Ведущий:** *Скажите, пожалуйста, господин Президент, что все-таки произошло в воскресенье, что спровоцировало столь масштабное и кровопролитное противостояние?*

**Президент Ильхам Алиев:** Вы знаете, к воскресенью, к тому, что произошло в воскресенье, Армения шла уже несколько месяцев. Если вы проследите хронологию их действий и заявлений, то отчетливо будет видно, что они шли к этой провокации сознательно. Не так давно, выступая с трибуны Генассамблеи ООН, я открыто говорил, что Армения готовится к войне и необходимо ее остановить. В июле они предприняли вооруженное нападение на наши населенные пункты на государственной границе. Это находится далеко от зоны конфликта. Тогда погиб один мирный житель и несколько военнослужащих. Столкновения длились четыре дня, и поскольку у нас не было и нет никаких военных целей на территории Армении, то как только армянские вооруженные силы были отброшены от нашей территории, по обоюдной договоренности огонь был прекращен. Затем, как я сказал, диверсионная группа проникает на нашу территорию, которая была нейтрализована. Затем армянская сторона публично, демонстративно объявляет о переселении на оккупированные территории и в наш древний азербайджанский город Шушу армян-выходцев из Ливана, что является военным преступлением. Это является нарушением Женевской конвенции. Делается это демонстративно. До этого они проводят так называемую «инаугурацию» так называемого главаря преступного Нагорно-Карабахского режима в Шуше – в древней жемчужине азербайджанской культуры. Все это сознательные провокации против нас, втягивание нас в конфликт и провоцирование на ответные действия. Мы проявляли сдержанность, конструктивность и здравый смысл, но, когда у них не получилось, они предприняли эту попытку. Более того, еще одна причина во внутриполитическом кризисе, который в Армении существует. Ведь сегодня в Армении существует режим Сороса. Переворот, который не удался в Беларуси, удался два года назад в Ереване. И сегодня руководитель Армении в лице Пашиняна – это ставленник Сороса, это человек, который сделал очень много обещаний и который не может их выполнить, и по существу страна находится в кризисе.

Таким образом, ему нужен был внешний фактор, какая-то заваруха, если можно так сказать, с тем, чтобы отвлечь внимание населения, что ему и удалось. Более того, буквально за два дня до того, как они напали на нас, в очередной раз лидер главной оппозиционной партии Армении был арестован. То есть, диктаторский, деспотичный режим Пашиняна ликвидировал все оппозиционное поле у себя в стране и сейчас демонстрирует агрессию вновь по отношению к азербайджанскому народу.

**Ведущий:** *Ваша позиция ясна. Спасибо огромное. Если можно буквально коротко: да или нет. Есть ли на фронте прямо сейчас боевики из Сирии?*

**Президент Ильхам Алиев:** Нет. Это очередной фейк ньюс. Никаких боевиков из Сирии нет. Нет ни одного свидетельства, ни одного доказательства. Это вброшено армянской пропагандой и циркулирует по разным сайтам и разным средствам массовой информации. Никакой необходимости в этом нет. У Азербайджана подготовленная армия, очень большой мобилизационный резерв. Буквально вчера я объявил о частичной мобилизации, мы призываем под ружье десятки тысяч резервистов, и с населением 10 миллионов против 2 миллионов у Армении у нас нет необходимости в человеческих ресурсах. Поэтому мы способны сами за себя постоять и наказать агрессора так, чтобы ему было неповадно больше даже смотреть в нашу сторону.

**Ведущий:** *Спасибо Вам большое. Ильхам Алиев был с нами на связи из Баку. Мира Вам. До свидания.*

**Президент Ильхам Алиев:** Спасибо. До свидания.

**Ведущий:** *Сейчас мы выходим на связь с Ереваном. К нам присоединяется лидер Армении, премьер-министр Армении Никол Пашинян. Никол Воваевич, здравствуйте. В первую очередь, мы бы хотели попросить вас прокомментировать, что прямо сейчас происходит. Приходят очень тревожные новости.*

**Никол Пашинян:** Сегодня с утра новость в том, что Азербайджан бомбил села уже непосредственно на территории Республики Армения. А до этого 27 сентября Вооруженные сила Азербайджана начали полномасштабную военную агрессию против Нагорного Карабаха. Они уже три дня бомбят населенные пункты Нагорного Карабаха, используя артиллерию и системы залпового огня. К сожалению, у нас здесь жертвы не только среди военных, но еще и среди гражданского населения. Очень важный нюанс, что Турция фактически вовлечена в этот процесс. По нашей достоверной информации, военные инструкторы и высокопоставленные военные сейчас находятся в командных пунктах Азербайджана и местами они даже руководят военными действиями. Еще один очень важный нюанс. Уже в международной прессе было множество публикаций о том, что Турция вербует наемников на территории Сирии и перевозит в Азербайджан для участия в войне против Нагорного Карабаха и Республики Армения. Между прочим, есть информация, что уже прямо в населенных пунктах Азербайджана произошли некоторые стычки между этими наемниками и местными жителями, потому что эти наемники пытаются навести законы шариата в этих селах, и они заходят в магазины и требуют, чтобы эти магазины прекратили продажу алкогольных изделий и т.д. и т.п.

**Ведущий:** *Скажите, пожалуйста, господин Пашинян, только что пришла новость о том, что турецкий F-16 сбил Су-25 армянских ВВС. Причем новость пришла со ссылкой на минобороны Армении. Пилот погиб. Известно ли вам об этой информации? Что это может означать, если уже в небе сталкиваются самолеты Армении и Турции?*

**Никол Пашинян:** Это уже состоявшийся факт и это еще одно доказательство того, о чем я говорил. Вы знаете, это очевидно, что сейчас и Армения, и армяне Нагорного Карабаха находятся под непосредственной угрозой Турции. Турция, по нашей информации, ищет повод для более широкого вовлечения в этот конфликт. Они, по нашей информации, ищут повод, чтобы привести свои войска в Нахчыван. Это азербайджанский анклав, граничащий с Турцией, Арменией и Ираном. Хотя у нас здесь информация, что там уже присутствуют некоторые подразделения турецкой армии. Вообще, в этом никакого секрета. Потому что с августа турецкие войска уже находятся в Азербайджане. Они начали совместные военные учения, и эта война началась как продолжение этих военных учений.

**Ведущий:** *Николай Воваевич, сейчас уже многие эксперты достаточно жестко формулируют и объясняют все, что сейчас происходит в Нагорном Карабахе. Звучит слово война. Насколько корректно, уместно использовать это слово и можно ли хоть что-то сейчас предпринять для того, чтобы и прекратить кровопролитие, и остановить огонь?*

**Никол Пашинян:** Ну это, конечно же, корректная формулировка. Потому что идет война. Есть очень много разрушений, жертв и вовлечено огромное число военнослужащих, и это для нас очень важный нюанс. Как вы знаете, в начале XX века произошел первый геноцид XX века. Это произошло в Оттоманской империи, и жертвой этого геноцида пал армянский народ.

Поэтому все мы воспринимаем как экзистенциальную угрозу для нашего народа. Фактически мы воспринимаем это как войну, которая была объявлена армянскому народу. Наш народ просто сейчас вынужден использовать право на самооборону. Что можно делать? Международное сообщество должно решительно осудить агрессивные действия и агрессию Азербайджана, осудить действия Турции. Потребовать, чтобы Турция вообще вышла с этого региона, потому что военное присутствие Турции на Южном Кавказе ничего хорошего не обещает. Это может привести к дальнейшей эскалации и увеличению масштаба этих военных действий, этой войны. Сейчас международное сообщество должно принять конкретные усилия, чтобы заставить Турцию выйти из Южного Кавказа и заставить Азербайджан прекратить агрессию и агрессивные действия, военные действия.

**Ведущий:** *Господин премьер-министр, не будем вас больше задерживать. Знаем, что вам нужно бежать на совещание с военными. Очень короткий вопрос: какие переговорные форматы сейчас могут сработать? Или все прежние договоренности уже отброшены в прошлое? Условно говоря, Казанский формат, по которому вы должны освободить несколько районов, эти все договоренности стерты, или еще возможно по ним двигаться?*

**Никол Пашинян:** Вы знаете, что касается переговорного формата, то мы представляем, что переговорный процесс должен продолжаться там, где он и начался. Это сопредседательство Минской группы ОБСЕ. Что касается конкретных переговоров, для переговоров нужно иметь соответствующую атмосферу. Очень трудно говорить о переговорах, особенно об их содержании, когда идут конкретные военные действия. Прежде всего нужно остановить насилие, и нужно констатировать, и Азербайджан должен принять эту формулу, что нет военного решения для нагорно-карабахской проблемы. Ведь эта война не началась с нуля. В течение долгого времени азербайджанское правительство развивает риторику ненависти против армян и в течение долгого времени угрожает, вопреки международным призывам, что собирается решать нагорно-карабахский вопрос военным путем. Я надеюсь, что хотя бы эти события и та ситуация, которую мы сейчас имеем, убедят Азербайджан, что нет военного решения для нагорно-карабахского конфликта. Потому что вооруженные силы Азербайджана провалили решение задачи, как мне думается, военно-политического руководства и не смогли достичь никакого успеха в военном смысле на фронте. То есть, они не смогли решить свою задачу. Я надеюсь, что это убедит Азербайджан, что нет военного решения этому конфликту. Есть только мирное и переговорное решение для нагорно-карабахского конфликта, и любое решение должно быть приемлемым не только для Азербайджана, но и для Армении, Нагорного Карабаха. Ведь, я хочу констатировать, что когда я стал премьер-министром, я предлагал и продолжал предлагать конкретную формулу для решения этого конфликта, что любое решение должно быть приемлемым для Армении, Нагорного Карабаха и Азербайджана. Напоминание стран не имеет никакого значения, я имею в виду, что это решение в равной степени должно быть приемлемым. К сожалению, правительство Азербайджана, Президент Азербайджана хотят достичь такого решения, которое будет приемлемо только для Азербайджана. Это невозможно.

Нужен компромисс, и для компромисса нужна атмосфера, и для этого Азербайджан должен немедленно прекратить агрессию против Нагорного Карабаха и Армении, потому что это Азербайджан начал, между прочим, и это была заранее спланированная операция, и нет никаких сомнений, что эта операция была спланирована во время военных учений совместно с турецкими вооруженными силами. Спасибо.

**Ведущий:** *Спасибо вам большое. Давайте исходить из того, что вариант должен быть в самом деле приемлемым и для Армении и, разумеется, для Азербайджана. Никакого военного способа разрешить этот конфликт не существует. Только политика и дипломатический путь. Спасибо.*

# Bizi hədəfləndiyimiz gələcək gözləyir - 90 yaşın mübarək!

***Azərbaycanın dünyada nüfuzu ilbəil artır. Bu, şübhəsiz ki, ümummilli lider Heydər Əliyev strategiyasının təntənəsi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin düşünülmüş siyasətinin və liderliyinin uğurudur. Prezident İlham Əliyevin qəbul etdiyi strategiya və dövlət proqramları əsasında ulu öndər Heydər Əliyevin dediyi kimi, "...təhsil sistemimiz xalqımızın, millətimizin tarixinə, mənəviyyatına, ənənələrinə uyğun qurulur" və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın təhsilə gündəlik qayğısı təhsilimizin uğurlarını şərtləndirən əsas amillərdəndir.***



**Ədalət MURADOV,**
**Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru, iqtisad elmləri doktoru, professor**

Çox zəngin tarixə sahib olan Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) də 90 illik yubileyini uğularla qeyd edir. Bugünkü universitetimizin nailiyyətlərinin əsasında məhz 90 ilin zəhməti və fədakar əməyi dayanır.

1930-cu ildə yaradılan universitetimizin bir neçə dəfə adı dəyişdirildi, müstəqil və müxtəlif universitetlərin tərkibində fəaliyyət göstərdi. Yalnız bir şey dəyişməz qaldı: biz əzmlə çalışmağa davam etdik, vətənimizin inkişafına öz töhfəsini verən mütəxəssislər, dəyərli vətəndaşlar yetişdirdik. Artıq dünyanın hər bir guşəsində qürur duyduğumuz, elmi, zəkası, müasir, yaradıcı baxışı ilə seçilən məzunlarımızın sədası eşidilir.

90 illik yubileyinə Azərbaycan Dövlət İqtisad Universitetini brendləşdirdik. UNEC brendi Azərbaycanla yanaşı, Türkiyə, Macarıstan, Polşa, Litva, Latviya, Slovakiya və Xorvatiyada da rəsmi qeydiyyata alındı. Artıq UNEC həm də keyfiyyətli təhsil brendi kimi qəbul edilir.

Təhsildə ən müasir tendensiyalar nəzərə alınaraq, Elektron Universitet modelini reallığa çevirdik. Elektron sənəd dövriyyəsini uğurla tətbiq etdik. Universitetimizə əcnəbilərin və təkrar ali təhsilə qəbulun ancaq internet üzərindən həyata keçirilməsi sistemini yaratdıq. Ən müasir texnologiyalarla təchiz olunmuş və 20 min tələbəyə distant təhsil vermək gücündə olan "UNEC Extern" distant təhsil mərkəzini istifadəyə verdik, proktoring sistemi və onun tətbiqi ilə online imtahan sistemini tətbiq etdik.

Müəllimlər arasında rəqabəti gücləndirməklə tədqiqatların prioritetliyini təmin edən və müəllimlərin əməkhaqqının formalaşmasında ciddi amilə çevrilən obyektiv və şəffaf reytinq sistemini yaratdıq. Elmi potensialın reallaşdırılması üçün əlverişli mühit formalaşdırdıq. UNEC-in ciddi tədqiqatlar aparan və tədqiqatların nəticələrini beynəlxalq elmi bazalarda nəşr etdirən tədqiqat universitetinə transformasiyasında uğurlar əldə etdik. 1991-2020-ci illərdə UNEC-in "Web of Scinece" bazasına daxil olan bütün elmi əsərlərinin 80%-dən çoxunu məhz son 5 ildə təmin etdik. 30-dan çox tədqiqat mərkəzləri yaratdıq.

Nüfuzlu doqquz xarici universitetlə ikili diplom proqramının reallaşdırılmasına nail olduq. Bu gün universitetimizin məzunlarının Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) diplomu ilə bərabər, həm də Linkoln (ABŞ), Montpellier və İCD (Fransa), London İqtisadiyyat Məktəbinin (Böyük Britaniya), Mikolas Romeris (Litva), UBİS (İsveçrə), Ali İqtisad Məktəbi və Moskva Dövlət Humanitar və İqtisad (Rusiya Federasiyası) universitetlərinin də diplomunu qazana bilmələrini təmin etdik.

Universitetimizi ali iqtisad təhsilini ixrac edən universitetə çevirə bildik. UNEC Rusiya Federasiyası ərazisində təhsil xidmətləri göstərmək üçün yeganə xarici universitet kimi lisenziya aldı. Avropa İttifaqına üzv olan Yunanıstanda UNEC-i akkreditasiyadan keçirdik və Yunanıstanın Qərbi Makedoniya Universitetində birgə magistr proqramını reallaşdırdıq.

UNEC-i tələbə mərkəzli universitetə çevirə bildik. Tələbə özünüidarəetməsində yeniliklərə imza atdıq və tələbələrin seçdikləri "Tələbə rektor"un bir il ərzində fəaliyyətini, "İqtisadçı tələbələrin elmi fəaliyyətinə yardım" İB, "İqtisadçı vətənpərvərlər təşkilatı", "UNEC könüllüləri", "Rəqəmsal könüllülər" kimi 10-dan çox tələbə təşkilatının yaradılmasını təşviq etməklə onları universitet idarəetməsinə cəlb etdik. Tələbələrin asudə vaxtının səmərəli təşkilini həyata keçirən və özündə müxtəlif dərnəkləri birləşdirən "UNEC Yaradıcılıq Mərkəzi"nin, İdman Klubunun, "UNEC radio"nun fəaliyyətini təşkil etdik.

MBA təhsilində ixtisasların və tələbələrin sayına görə liderliyə və bu təhsil üzrə ölkədə bütün tələbələrin təqribən 70 faizini cəlb etməyə nail olduq. UNEC Biznes Məktəbi ABŞ-ın Biznes Məktəblərinin İnkişafı Assosiasiyasının (AACSB) tamhüquqlu üzvlüyünə qəbul və ACCA tərəfindən akkreditasiya edildi.

UNEC-in uğurları beynəlxalq reytinq agentliklərinin də diqqətindən yayınmadı. Tarixndə ilk dəfə olaraq, 14 iyun 2016-cı ildə UNEC-in QS Reytinq Agentliyinin reytinq siyahısına daxil olmasına nail olduq. UNEC İnkişaf Etməkdə olan Avropa və Mərkəzi Asiya Regionu universitetləri arasında ən yaxşı ilk 200 universiteti sırasına daxil oldu və regionun ən yaxşı 4-cü iqtisad yönümlü universitet seçildi. Dünya universitetlərinin veb populyarlığını müəyyən edən UniRank reytinqində 2017-2020-ci illərdə UNEC hər il Azərbaycanın ən yaxşı ali məktəbi seçildi.

Qocaman və nüfuzlu universitetimizin bir hissəsi olmaq həqiqətən qürurverici, sözlərlə ifadə edilə bilməyən nüfuzlu bir universitet dəyərini daşımaq fəxarətdir. Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) keçmişinə ehtiramla yanaşmaqla yanaşı, gələcəyinə böyük ümidlərlə baxırıq. İnanıram ki, universitetimizin zəngin təcrübəsini qoruyub artıracaq, yeni-yeni ideyaların müəllifi olacaq, daha böyük və müasir layihələri həyata keçirəcək və elmin yeni zirvələrini fəth edəcəyik. Bu yolda hər birimiz yorulmadan çalışmağa davam edəcəyik. Çünki bu yolun sonunda bizi hədəfləndiyimiz gələcək gözləyir. Hədəfimiz isə 2018-ci ildə qəbul etdiyimiz və özündə 7 strateji məqsəd və 31 strateji hədəfi ehtiva edən "UNEC-100" İnkişaf Strategiyasına əsasən UNEC-in 100 yaşının tamam olacağı 2030-cu ildə dünyanın ən yaxşı 500 universitetlərindən birinə çevrilməkdir.

Əziz və dəyərli UNEC ailəsi, universitetimizin hər bir müəllim və əməkdaşı, hər bir məzunu və hər bir tələbəsi!

Bir daha hər birinizi Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) 90 illik yubileyi münasibəti ilə ürəkdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, vətənimizin və universitetimizin daha da inkişafı istiqamətində fəaliyyətinizdə yeni-yeni uğurlar arzu edirəm. Qoy, 90 illiyini qeyd etdiyimiz bu gün daha böyük uğurun yeni bir başlanğıcı olsun...

***90 yaşın mübarək, UNEC!***



**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Azərbaycan Dövlət İqtisad Universitetinin 90 illiyi münasibətilə və Azərbaycanda təhsilin inkişafındakı xidmətlərinə görə Əli Pənah oğlu Həsənova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi qərara alınmışdır.** Prof. Həsənov Əli Pənah oğlu hazırda UNEC-in "İstehlak mallarının ekspertizası" kafedrasının müdiridir.

Müxtəlif illərdə fəxri fərmanlar, mükafatlarla qiymətləndirilib. 2010-cu ildə AR Prezidentinin sərəncamına əsasən "Tərəqqi" medalı ilə təltif olunub.

## TƏBRİK EDİRİK!

***Azərbaycan Dövlət İqtisad Universitetinin əməkdaşlarının təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI ilə Azərbaycan Dövlət İqtisad Universitetinin 90 illiyi münasibətilə və Azərbaycanda təhsilin inkişafındakı xidmətlərinə görə Azərbaycan Dövlət İqtisad Universitetinin aşağıdakı əməkdaşları "Tərəqqi" medalı ilə təltif edilsin:***



Abbasov Alıcan Bayraməli oğlu - i.e.d., prof.
2001-2014-cü illərdə "Biznesin idarə edilməsi" kafedrasının müdiri, vəzifəsində çalışmışdır.



Abbasova Afət Musa qızı - "Xarici dillər" kafedrasının müdiri prof.
ABŞ, İtaliya, Birləşmiş Krallıq, İspaniya, Türkiyə, Tailand, İsrail, Şimali Kipr Cümhuriyyəti, Serbiya və başqa müxtəlif ölkələrdə keçirilən beynəlxalq konfranslarda çıxışlarla iştirak etmişdir.



Babayev Əlican Pirican oğlu - "İqtisadi nəzəriyyə" kafedrasının müdiri, prof.
UNEC-də fəaliyyət göstərən Dissertasiya Şurasının sədr müavinidir.
AR Prezidentinin 26 sentyabr 2011-ci il Sərəncamına görə Azərbaycanda təhsilin inkişafındakı xidmətlərinə görə "Əməkdar Müəllim" fəxri adı verilib. 06 oktyabr 2017-ci ildə uzunmüddətli səmərəli elmi-pedaqoji fəaliyyətinə görə UNEC-in "Fəxri Fərmanı" ilə təltif edilib.



Babayev Telman Qurban oğlu – "Nəzəri və praktiki iqtisadiyyat" kafedrasının professoru
Müxtəlif illərdə kafedra müdiri, hazırlıq fakültəsinin dekanı vəzifələrini əvəz edib, 1986-cı ildə Uçot-iqtisad fakültəsinin qiyabi təhsil üzrə dekan müavini, 1987-2006-cı illərdə həmin fakültənin dekanı vəzifəsində işləyib. 2016-cı ildən UNEC-in "Nəzəri və praktiki iqtisadiyyat" kafedrasının professorudur.



Babayeva Rəna Fikrət qızı - fizika-riyaziyyat elmləri doktoru, prof.
2000-ci ildən Azərbaycan Dövlət İqtisad Universitetində dosent vəzifəsində çalışıb. 147 elmi və elmi-metodiki əsərin müəllifidir.



Əbdülhəsənli Tofiq Əbdüləziz oğlu - "Azərbaycan dili" kafedrasının müdiri, filologiya elmləri doktoru, prof.
1993-cü ildən Azərbaycan Dövlət İqtisad Universitetinin "Azərbaycan dili" kafedrasında müəllim, baş müəllim, dosent vəzifələrində çalışmışdır. Hazırda "Azərbaycan dili" kafedrasının müdiridir.



**Azərbaycan Dövlət İqtisad Universitetinin əməkdaşlarına fəxri adların verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Azərbaycan Dövlət İqtisad Universitetinin 90 illiyi münasibətilə və Azərbaycanda təhsilin inkişafındakı xidmətlərinə görə Azərbaycan Dövlət İqtisad Universitetinin əməkdaşı Həsənli Yadulla Həmdulla oğluna Azərbaycan Respublikasının "Əməkdar elm xadimi" fəxri adı verilmişdir.** Həsənli Yadulla Həmdulla oğlu - İqtisadi Araşdırmalar Elmi Tədqiqat İnstitutunun direktoru, i.e.d., prof., sosial-iqtisadi modelləşdirmə, makroiqtisadi siyasət, makroiqtisadiyyatın proqnozlaşdırılması, neft və qaz qiymətlərinin proqnozlaşdırılması ilə məşğul olur.



Əhmədov Mirağa Məhərrəm oğlu - Biznes və menecment fakültəsinin dekanı, i.e.n., dos.
2015-ci ildə ABŞ Dövlət Departamentinin Beynəlxalq Liderlik Proqramında (Ali təhsilin idarə edilməsi) iştirak edərək Beynəlxalq sertifikata layiq görülmüşdür.



Əliyev Nəvai Şaxlar oğlu – baş müəllim
2000-ci ildən İqtisad Universitetinin "Maliyyə və maliyyə institutları" kafedrasında müəllim vəzifəsində çalışıb. Hazırda UNEC-in "Maliyyə və maliyyə institutları" kafedrasının baş müəllimidir.
UNEC-in Tədris-Metodiki Mərkəzinin direktor müavinidir.



Əliyev Müşrəvan Əli oğlu - dekan müavini, i.e.n., dos.
2010-cu ildən İqtisadiyyat və sənaye, hazırda İqtisadiyyat fakültəsinin dekan müavinidir.



Hacıyev Əli Vəli oğlu - "Müəssisənin iqtisadiyyatı" kafedrasının müdiri, i.e.n., dosent
100-dən artıq elmi məqaləsi, tədris-metodiki və tərcümə olunmuş tədris vəsaitləri dərc olunmuşdur.
2019-cu ilin martında dosent Əli Hacıyevə UNEC-in Fəxri Professoru adı verilmişdir.



İsayev Söhrab Zülfüqar oğlu - i.e.n., dos.
Azərbaycan Dövlət İqtisad Universitetinin «İqtisadi hüquq» kafedrasının dosenti vəzifəsində çalışır.



Manafov Qabil Nadir oğlu - Magistratura Mərkəzinin direktoru, i.e.d., prof. 2014-cü ilin aprelindən İqtisad Universitetinin Magistratura Mərkəzinin direktorudur, "Nəzəri və praktiki iqtisadiyyat" kafedrasının professorudur. UNEC-in Dissertasiya Şurası nəzdində fəaliyyət göstərən Daimi Elmi Seminarın sədri və üzvüdür. Azərbaycan Milli Ensiklopediyasının məsləhətçisidir.
AR Prezidentinin 26 sentyabr 2011-ci il Sərəncamına əsasən Azərbaycanda təhsilin inkişafındakı xidmətlərinə görə "Əməkdar Müəllim" fəxri adı verilib.



Həsənli Mirələm Xası oğlu - i.e.d., professor
1993-cü ildən elmi-pedaqoji fəaliyyətlə məşğuldur. 2000-ci ildən İqtisad Universitetinin "Maliyyə" kafedrasının ilk elmlər doktoru, professorudur.

***Azərbaycan Dövlət İqtisad Universitetinin əməkdaşlarının təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI ilə Azərbaycan Dövlət İqtisad Universitetinin 90 illiyi münasibətilə və Azərbaycanda təhsilin inkişafındakı xidmətlərinə görə Azərbaycan Dövlət İqtisad Universitetinin aşağıdakı əməkdaşları "Şöhrət" ordeni ilə təltif edilsin:***



Ədalət Cəlal oğlu Muradov – professor, UNEC-in rektoru.
1999-cu ildən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında professor vəzifəsində çalışmış, makroiqtisadiyyat, iqtisadiyyatın dövlət tənzimlənməsi, Azərbaycanın iqtisadi siyasəti fənlərini tədris etmişdir.
Dövlət qulluğunun müşaviridir.
2011-2014-cü illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasında İqtisadiyyat (İqtisadiyyat və Hüquq) üzrə Ekspert Şurasının Sədr müavini olmuşdur. UNEC-də fəaliyyət göstərən Dissertasiya Şurasının sədridir.




Əlirzayev Əli Qəmbərəli oğlu - "Sosial sferanın iqtisadiyyatı və idarə olunması" kafedrasının müdiri, i.e.d., prof.
2000-ci ildə "Uğur" mükafatına layiq görülüb. 2002-ci ildə əməkdar elm xadimi adı verilib.
2016-cı ilin fevralında Avropa nəşr mətbuat evi mükafat komissiyasının qərarı ilə milli mənəvi dəyərlərimizin qorunmasında, istedadlı gənc alimlərin hazırlanmasında səmərəli fəaliyyətinə görə ən yaxşı vətənpərvər tədqiqatçı alim "qızıl medalı" ilə təltif olunub.



Əhmədov Məhiş Alış oğlu - "İqtisadiyyatın tənzimlənməsi» kafedrasının müdiri, i.e.d., professor. Əməkdar elm xadimidir.
2008-ci ildən universitetin nəzdində fəaliyyət göstərən İxtisaslaşdırılmış Müdafiə Şurasının üzvüdür.
Azərbaycanda «Elmi tədqiqatların təşkili və əlaqələndirilməsi»nin «İqtisad bölməsi» üzrə Problem Şurasının, Universitetin Elmi Şurasının, İqtisad elmləri:
«Nəzəriyyə və praktika» jurnalının redaksiya heyətinin üzvü, universitetin Tədris-Metodiki Şurasının bölmə rəhbəridir.



Şəkərəliyev Arif Şəkərəli oğlu - "Ticarət və gömrük işinin təşkili" kafedrasının müdiri, prof.
2002-ci ildə elmi fəaliyyətinə görə Əməkdar Elm Xadimi fəxri adı verilib.
Beynəlxalq Menecment Akademiyasının üzvüdür. "Qızıl qələm" media mükafatına layiq görülüb.
2017-ci ildən UNEC-in Xarici ticarətə dəstək mərkəzinin rəhbəridir. UNEC-də fəaliyyət göstərən Dissertasiya Şurasının sədr müavinidir.

Həsənov Heydər Sərdar oğlu - i.e.d., prof.
2012-ci ildən İqtisad Universitetinin "Menecment" kafedrasının professorudur.





Qəhrəmanov Nizami Əmir oğlu - İnsan resursları şöbəsinin müdiri
2000-ci ilin iyun ayından hal-hazıradək İqtisad Universitetinin kadrlar şöbəsinin rəisi vəzifəsində çalışır.

Quliyev Müşfiq Yelmar oğlu - i.e.d., dos. Azərbaycan Dövlət İqtisad Universitetinin "Beynəlxalq iqtisadiyyat" kafedrasının dosentidir. 2017-ci ilin noyabrında UNEC-in Elmi Şurasında Fəxri Fərmanla təltif olunmuşdur.





Məmmədov Elşad Yaqub oğlu - i.e.d., prof. Hazırda "İqtisadiyyat" (Ekonomika) kafedrasının professorudur. 2018-ci ildən RUS İQTİSAD MƏKTƏBİNİN (UNEC) direktor müavini vəzifəsində çalışır.

Məmmədova Sevər Mömin qızı - i.e.n., dos.
2018-ci il tarixdən UNEC-in "İqtisadiyyat və biznesin idarə edilməsi" kafedrasının müdiri təyin edilmişdir.





Muradov Rəşad Şahbaz oğlu - prof. Milli iqtisadiyyatın aktual problemlərinə aid elmi əsərlərin, kitab, monoqrafiya, dərs vəsaiti və tədris proqramlarının müəllifidir. 1996-1998-ci illərdə TACİS proqramı çərçivəsində Niderland Krallığının Amsterdam Universitetində təhsil almışdır.

Mustafayeva Zöhrə İsmayıl qızı - i.e.n., dos.
1990-cı ildən Azərbaycan Dövlət İqtisad Universitetində "Əməyin iqtisadiyyatı və təşkili" kafedrasında dosent vəzifəsində çalışır.
1990-cı ildən 2014-cü ilə kimi Müdafiə Şurasının üzvü və elmi katibi olmuşdur.





Nuriyev Məhəmmədəli Nurəddin oğlu - tex.e.d., prof.
UNEC-in "Standartlaşdırma və sertifikasiya" kafedrasının professorudur.

Anar Yaşar oğlu Rzayev - Tədris və təlim texnologiyaları üzrə prorektor, i.f.d., dos. 2018-ci il dekabrın 21-də UNEC-in Tədris və təlim texnologiyaları üzrə prorektoru vəifəsinə təyin olunub.





Seyidov Abbas Qadir oğlu - t.e.d., prof.
2013-cü ildən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tarix üzrə ekspert şurasının üzvüdür. 1998-ci ildə "Qızıl Qələm" jurnalist mükafatına, 2011-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirinin əmri ilə "Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi" adına layiq görülüb.

Səidov Rasim Əzim oğlu - «İstehlak mallarının ekspertizası» kafedrasının professoru, texnika elmləri doktoru.





Sərdarova Sevda Yusif qızı - i.f.d., dos.
2008-ci ildə iqtisad elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsi alıb. UNEC-in "İqtisadi nəzəriyyə" kafedrasının dosentidir. 2019-cu ildən UNEC-in TKQİM-in Tədrisin keyfiyyətinə nəzarət şöbəsinin (0.5) müdiridir.

Tağıyev Mayıl Məsim oğlu - fiz.e.d., prof.
2017-ci ildə uzunmüddətli səmərəli elmi-pedaqoji fəaliyyətinə görə UNEC-in "Fəxri Fərmanı" ilə təltif edilib.





Xalidə Hacı qızı Yusifova - Tələbə işləri mərkəzinin direktoru, i.e.n.
1993-cü ildən Azərbaycan Dövlət İqtisad Universitetində fəaliyyətə başlayıb.
2020-ci ilin avqustundan Tələbə işləri mərkəzinin direktorudur.

Zeynalov Mikayıl Gəray oğlu - İqtisadi məsələlər üzrə prorektor, h.ü.f.d., dos.
1997-ci ilin avqust ayından 2009-cu ilin fevral ayınadək Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Bakı şəhəri Qaradağ rayonu üzrə Maliyyə İdarəsində məsləhətçi, şöbə müdiri, sektor müdiri vəzifələrində çalışıb.



*Azərbaycan Dövlət İqtisad Universitetinin əməkdaşlarının təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI ilə Azərbaycan Dövlət İqtisad Universitetinin 90 illiyi münasibətilə və Azərbaycanda təhsilin inkişafındakı xidmətlərinə görə Azərbaycan Dövlət İqtisad Universitetinin aşağıdakı əməkdaşları 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif edilsin:*

Azadov Eldar Həsənxan oğlu - Tədris-metodiki mərkəzin direktoru, dos.
2014-cü il tarixdən Azərbaycan Dövlət İqtisad Universitetinin Tədris-Metodiki Mərkəzinin direktoru vəzifəsində çalışır.





Şaiq Əhəd oğlu Əsgərov - İnzibati və təşkilati məsələlər üzrə prorektor, i.e.n.,dos.
Azərbaycan Respublikası Prezidentinin 4 fevral 2013-cü il tarixli Sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif edilmişdir.

Vəliyev Həbib Məmməd oğlu - i.e.n., dos.
UNEC-in "Nəzəri və praktiki iqtisadiyyat" kafedrasının dosentidir. Distant, qiyabi və əlavə təhsil mərkəzinin direktor müavinidir.





Səbzəliyev Sifariz Mirzəxan oğlu - "Mühasibat uçotu və audit" kafedrasının müdiri, prof.
AR Prezidentinin 26 sentyabr 2011-ci il Sərəncamına əsasən Azərbaycanda təhsilin inkişafındakı xidmətlərinə görə "Əməkdar Müəllim" fəxri adına layiq görülüb.

*Azərbaycan Dövlət İqtisad Universitetinin əməkdaşlarının təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI ilə Azərbaycan Dövlət İqtisad Universitetinin 90 illiyi münasibətilə və Azərbaycanda təhsilin inkişafındakı xidmətlərinə görə Azərbaycan Dövlət İqtisad Universitetinin aşağıdakı əməkdaşlarına "Əməkdar müəllim" fəxri adları verilsin:*



*Abbasov Qəzənfər Əli oğlu - i.e.d., prof.*



*Əliyev Məhəmməd Ələkbər oğlu - i.f.d., dosent*



*Əliyev Ümüdvar Qənbər oğlu - i.e.d., prof.*



*Fərzəliyev Məzahir Həmzə oğlu - tex.e.d., prof.*



*Hacıyev Nazim Özbəy oğlu - i.e.n., dosent*



*Həsənov Vəkil Səfiyar oğlu - t.e.d., prof.*



*Həsənova Zöhrə Bilal qızı - dos., Fiz.riyaz.e.n.*



*Hüseynov Vəkil Nemət oğlu - professor*



*Kərimli İrşad Abdul oğlu - i.e.d., prof.*



*Quliyev Asiman Aydın oğlu - i.e.n., dosent*



*Məmmədov Məmməd Hümbət oğlu- i.e.n., dos.*



*Zahid Fərrux Məmmədov - i.e.d., prof.*



*Osmanov Tofiq Ramazan oğlu - tex.e.n., dosent*



*Rzayev Rövnəq Mirzə oğlu - fiz.e. dok., professor*



*Rzayeva Gülnarə Namik qızı - dos.*



*Sadıqov Mustafa Məmmədsadıq oğlu - dos.*



*Yaqubov Sakit Məmədi oğlu - i.e.d., prof., prorektor*



*Şıxlinskaya Gülnarə Teymur qızı- r.e.n., dos.*



*Vəliyev Fazil Əli oğlu - tex.e.d., prof.*

# Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, iqtisad elmləri doktoru, professor Ədalət Muradova

Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) 90 illik mövcudluğu dövründə çox şərəfli yol keçmişdir. Keçmiş sovetlər dövründə də, müstəqillik illərində də bu təhsil ocağının Azərbaycan xalqı və dövləti, Azərbaycan təhsili və elmi qarşısında böyük nailiyyətləri olmuşdur və mövcuddur. UNEC bu gün ən nüfuzlu ali təhsil mərkəzlərindən birinə çevrilməkdə, dünyanın ən tanınmış universitetləri, iqtisadçı alimlərilə geniş əməkdaşlıq etməkdədir. Bu ali təhsil ocağının diplomları artıq dünyanın hər yerində tanınır, qəbul edilir. UNEC ali təhsil ocağı olmaqla yanaşı, həm də güclü elmi potensiala malik olan bir mərkəzdir. Bir iqtisadçı olaraq, sevinirəm ki, ilk təhsilimin bir hissəsini bu məktəbdə almışam, sevinirəm ki, uzun illər bu universitetlə əməkdaşlıq etmişəm və edirəm. Bu tarixi, əlamətdar hadisə münasibəti ilə UNEC-in bütün kollektivini, rəhbərliyini, keçmiş və indiki tələbələrini ürəkdən təbrik edir, onlara yeni-yeni nailiyyətlər, müvəffəqiyyətlər arzulayıram. Respublikamızda islahatlar yeni keyfiyyət mərhələsinə qədəm qoymuşdur və bu, öz müsbət nəticələrini verməkdədir. Bizim hər birimiz, vəzifəsindən asılı olmayaraq, xalqımıza, Vətənimizə, doğma Azərbaycanımıza borcluyuq. İqtisadçı olmaq o qədər də asan deyildir. Çünki onun məsuliyyəti böyükdür. Peşəkar iqtisadçının, alimin bir səhv təhlili, hesablaması, çıxardığı nəticə bəzən böyük itkilərə səbəb olur. İqtisadiyyat barəsində düşüncələrimizə, təbii ki, müxtəlif münasibət ola bilər. Ancaq hamımızın bir ali məqsədi var, o da Azərbaycana xidmət, Azərbaycanı XXI əsrdə daha inkişaf etmiş bir dövlət, xalqımızı isə xoşbəxt görməkdir. Bir iqtisadçı kimi tam əminəm ki, yaşadığımız, artıq 20 ilini geridə qoymaya hazırlaşdığımız XXI əsrdə Azərbaycan dinamik və keyfiyyətli iqtisadi inkişafı təmin edə bilən müstəqil bir dövlət kimi fəaliyyət göstərəcək. İqtisadi təhsil də, iqtisad elmi də bu müqəddəs vəzifəyə ləyaqətlə xidmət edəcək. Biz hamımız keçmişin yaxşı ənənələrini, elmi potensialını qorumalı, reallıqdan doğan problemlərin həllinin elmi



*Ziyad Səmədzadə - akademik, millət vəkili*

bazasını gücləndirməliyik. Həmçinin, qeyd etmək istərdim ki, gələcək barədə kollektiv düşüncə tərzinə yiyələnmək, birgə düşünmək, qlobal risklərin artdığı bir şəraitdə liberalizmə çox ustalıqla, çox həssaslıqla yanaşmaq, onu fetişləşdirməmək, dəyişən dünyada dövlətin rolunu kiçiltməmək respublikamız üçün geniş inkişaf imkanları yarada bilər. İqtisadiyyat elmi sahəsində də potensialımız güclüdür. Azərbaycan Dövlət İqtisad Universitetinin professor-müəllim heyətinin, istedadlı tələbə-gənclərin yaradıcılığını xarakterizə edən faktlarla tanışlıq bunu sübut edir. Mən həyatdan köçmüş iqtisadçı alimlərimizin xatirəsini bir daha əziz tutur, bu gün elm, təhsil ocaqlarında, iqtisadi həyatın bir çox sahələrində çalışan iqtisadçı alimlərimizə, həmkarlarıma möhkəm cansağlığı, Azərbaycanın çiçəklənməsi naminə uğurlar arzulayıram.

***Bir daha 90 illik yubileyi münasibəti ilə UNEC-i, onun bütün kollektivini, rektorluğunu, professor-müəllim-tələbə heyətini təbrik edir, onlara Azərbaycan təhsili, Azərbaycan elmi naminə fəaliyyətlərində uğurlar diləyirəm. Hesab edirəm və inanıram ki, bu nüfuzlu ali təhsil və elm mərkəzi bundan sonra da layiqli, peşəkar mütəxəssislər yetişdirəcək, Azərbaycanın sosial-iqtisadi inkişafına öz töhfələrini verməkdə davam edəcək.***

# 80 yaşlı məktəb

*"Bizim hər birimiz elmi dərəcəmizdən, biliyimizdən, təhsil səviyyəmizdən asılı olmayaraq, bütün nailiyyətlərimizə görə məktəbə, müəllimə borcluyuq."*

*Heydər Əliyev*







Ölkəmizdə zəngin tarixi, pedaqoji ənənələri ilə fərqlənən məktəblər çoxdur. Amma onların arasında bir məktəb var ki, bu məktəbin müəllimləri də şagirdləri də fərqlidir. Söhbət Səbail rayonunda yerləşən, sağlamlıq imkanları məhdud olan uşaqlar üçün nəzərdə tutulmuş 219 nömrəli tam orta məktəbdən gedir. Elə bu səbəbdən də, məktəbin müəllimləri daha həssas, daha qayğılı, daha məsuliyyətlidir.

80 yaşını qeyd edən bu qocaman təhsil ocağı uzun və şərəfli inkişaf yolu keçmiş, müasir tipli tədris müəssisəsinə çevrilmişdir.

Məktəb 1940-cı ildən fəaliyyət göstərir. Burada 360-dan artıq şagird təhsil alır. Onların təlim və tərbiyəsi ilə 200-dən çox müəllim məşğul olur. Larisa Vanyuşina, Şəfəq İsgəndərzadə, Vera Çirkova, Rəna Əhmədova, İradə Əbdüləzimova, Təranə İbrahimova, Cəmilə Kərimova, Maral Vəliyeva, Nigar Seyidova, İlhamə Kazımova, Yazgül Ağayeva, Azadə Məmmədova, Səliməxanım Qurbanova və digərləri. Əlbəttə ki, onların hamısının adını bir yazıda çəkmək qeyri-mümkündür. Onların hər biri alqışa layiqdir. Çünki bütün səylərini, bacarıqlarını xəstə uşaqların təlim-tərbiyəsinə həsr edirlər, heç birinə fərq qoymadan, heç birini seçmədən, doğma övladları kimi yanaşırlar.

### Tələbkar direktor, əxlaqi dəyərlərə xüsusi önəm verən müəllim

Məktəbin direktoru Sahilə xanım Əliyevadır. "Valideynlər dünyada ən əziz, ən qiymətli varlıq olan uşaqlarını biz müəllimlərə etibar edir. Bilirlər ki, onların övladları əmin əllərdədir. Bu etibarı doğrultmaq bizim əsas vəzifəmizdir", - deyir Sahilə müəllimə.

Onun sözlərinə görə, belə uşaqların cəmiyyətə inteqrasiyası zəruridir. Onlar insanlar arasında özlərini cəmiyyətin bərabərhüquqlu vətəndaşları kimi hiss etməlidirlər. Heç bir uşaq düşünməməlidir ki, sağlamlıq cəhətdən qüsuru varsa, deməli zəifdir, lazımsızdır. Buna yol vermək olmaz. Bizim kollektiv məhz buna çalışır və nail olur. Şagirdlərimizin arasında fəxr etdiyimiz, qürur duyduğumuz istedadlı uşaqlar çoxdur. Onlar öz nailiyyətləri, yeni uğurları ilə bizi sevindirir, məktəbimizin adını yüksəklərə qaldırırlar.

2007-ci ildən başlayaraq ölkəmizdə beynəlxalq təşkilatlarla birlikdə "Elektron məktəb" layihəsi həyata keçirilir. 2010-cu ildən isə məsafədən təhsili inkişaf etdirmək üçün Səbail rayonundakı respublikada yeganə sağlamlıq imkanları məhdud olan uşaqlar üçün nəzərdə tutulmuş 219 nömrəli orta məktəbdə "Elektron Təlimləndirən Sistemlər" layihəsi icra olunur.

Məktəbin direktoru Sahilə müəllimə deyir: "Sağlamlıq imkanları məhdud olan uşaqları distant təhsilə cəlb etməklə onların cəmiyyətə inteqrasiya olunmasına dəstək vermək niyyətindəyik. Distant təhsil müəyyən məsafədən keçirilən təlim sistemi, öyrədən və öyrənən arasında əlaqəni telekommunikasiya və kompüter şəbəkələri vasitəsilə operativ, müntəzəm dialoq, əks əlaqə əsasında həyata keçirilən təhsil formasıdır. Distant təhsil əhalinin bütün təbəqələrinə təhsil almaq imkanı verir, ənənəvi təlimdən ucuz başa gəlir, təlimin səmərəliliyi təmin olunur. Məsafə maneə törətmir - kompüter və internetə çıxışın olması kifayətdir.

Sağlamlıq imkanı məhdud olan uşaqlara bu qüsurlarını özlərinə dərd etməyə imkan verilməməlidir. Əlil uşaqlar cəmiyyətin bərabərhüquqlu üzvlərinə çevrilirlər. İnternetdə məktəbimizin forumu da fəaliyyət göstərir. Uşaqlarımız bu forumda bir-biri ilə tanış olurlar, vahid informasiya məkanında ünsiyyət qururlar. Onlar hətta sağlam insanlara dərs öyrədə bilərlər. Əlil uşaqlar cəmiyyətin bərabərhüquqlu üzvlərinə çevrilərlər ".

### "Şagirdlərin hər uğuru, hər sevinci mənim də sevincimdir"

Məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini Tahirə xanım Ağayevadır. Onun olduğu yerdə nizam-intizam, davranış qaydalarına riayət yüksək səviyyədədir. Bu, peşəkar təhsil işçisinin səbri, təmkini, məktəbdə müəllim-şagird-valideyn münasibətlərinin düzgün qurulması, ən əsası isə pedaqoji ustalığı sayəsində mümkün olub. Tahirə müəllimə deyir ki, rəhbərlik bütün kollektivə, müəllim isə öz şagirdinə nümunə olmalıdır. Məktəbdə müəllim-şagird münasibətlərinə xüsusi diqqət verilməlidir. Doğma məktəbimə, sevimli şagirdlərimə sərf etdiyim əməyimin bəhrəsini görəndə illərimin hədər getmədiyini düşünürəm və bununla qürur duyuram. Şagirdlərin hər uğuru, hər sevinci mənim də sevincimdir. Çünki biz bir ailəyik, başqa cür ola da bilməz.

Məktəbin pedaqoji kollektivi daim öz biliyini artırmaq qayğısına qalır, respublikada əldə olunmuş müasir təcrübəni təlim-tərbiyə prosesinə tətbiq edirlər. Şagirdlərin vətənpərvərlik, dövlətə və dövlətçiliyimizə sədaqət ruhunda tərbiyə olunmasına xüsusi fikir verilir ki, bu da müasir məktəbin qarşısında duran əsas vəzifədir.

219 nömrəli orta məktəbin kollektivi məhz bunu hədəf alaraq, gələcəyimiz olan uşaqlara yalnız təhsil vermək üçün deyil, onların cəmiyyətə layiq əsl vətəndaş kimi yetişməsi üçün böyük əzmlə, var-qüvvəsi ilə çalışır.

### *5 oktyabr Beynəlxalq Müəllimlər Günüdür*

Beynəlxalq Müəllim Günü həyatını xalqın işıqlı gələcəyinə həsr edən müqəddəs peşə sahiblərinin bayramıdır. Müəllim peşəsini yüksək qiymətləndirən ümummilli lider Heydər Əliyev deyirdi: "Həyatını müəllimliyə həsr edən insanlar həqiqətən fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda qəhrəmanlıq göstərən insanlardır". Ulu öndər hakimiyyətdə olduğu bütün dövrlərdə müəllim əməyinə yüksək qiymət verilməsi, onların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində çox əhəmiyyətli qərarlar qəbul etmişdir.

Bu insanların əməyi bir də ona görə çox əhəmiyyətlidir ki, onlar müstəqil Azərbaycanımızın gələcəyinin qurucularını hazırlayırlar.

Müəllimlərə xalq arasında böyük hörmət və ehtiram var və gələcəkdə də belə olacaq. Heç bir müasir təhsil texnologiyası müəllim əməyini əvəz edə bilməz. Heç şübhəsiz ki, müstəqil Azərbaycanımızın müəllimlər ordusu xalqımızın gələcək xoşbəxt həyatı üçün bütün imkanlarını səfərbər edəcək, xalqımıza layiq vətəndaşların yetişdirilməsində öz xidmətlərini əsirgəməyəcəklər.

Peşə bayramı münasibətilə Səbail rayonu 219 nömrəli tam orta məktəbin bütün kollektivini ürəkdən təbrik edir, bu şərəfli və məsul işdə hər birinə uğurlar diləyirik.

**"İQTİSADİYYAT" qəzeti**



# Rusiya Dağlıq Qarabağdakı hadisələri diqqətlə izləyir



Bu barədə Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib. "Bütün məlumatlar hərtərəfli təhlil edilir. Həmçinin dünyanın müxtəlif ölkələrində yüksək və ali səviyyədə səsləndirilən, müxtəlif beynəlxalq liderlərin dilə gətirdikləri bəyanatları da səliqə ilə qeyd edirik", – Kreml rəsmisi deyib.

# Ermənistanın bu təxribatları bölgədəki sülh danışıqlarını "baltalayır"



Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasından (ASK) verilən məlumata görə, bu sözlər Türk Ticarət və Sənaye Palatasının (TOBB) sədri Rıfat Hisarcıklıoğlunun ASK-nın prezidenti Məmməd Musayevə ünvanladığı məktubunda yer alıb.

Məktubda deyilir ki, sentyabrın 27-dən başlayan hadisələri öz növbəsində TOBB da diqqətlə izləyir və Ermənistanın bu təxribatlarının bölgəmizdəki sülh danışıqlarını "baltaladığını" bəyan edir.

Bu təxribatlar beynəlxalq hüququ açıq şəkildə tapdalayır. Mülki əhali arasında itkilərə yol açan bu təxribatları şiddətlə qınayırıq. Ermənistan bu təxribatçı hərəkətləri ilə bölgədə sülh və əmin-amanlıq üçün əsas təhlükə olduğunu bir daha göstərdi deyən R.Hisarcıklıoğlu Azərbaycanın öz xalqını və ərazi bütövlüyünü qorumaq üçün haqlı müdafiəsini dəstəklədiklərini qeyd edib.

Bu dönəmdə türk iş dünyasının və Türk Ticarət və Sənaye Palatasının Azərbaycana dəstəyi tamdır deyən TOBB sədri beynəlxalq ictimaiyyəti də haqlının yanında olmağa çağırıb.

R.Hisarcıklıoğlu Azərbaycan torpaqlarının azad olunması uğrunda gedən döyüşlərdə şəhid olanlara Allahdan rəhmət diləyib, "Can Azərbaycan"a başsağlığı verib və yaralılara acil şəfa diləyib.

# Dünya üzrə günəş enerjisi sektorunda 3,8 milyon nəfər çalışır



Bu barədə Beynəlxalq Bərpa olunan Enerji Agentliyi (IRENA) məlumat yayıb. Bildirilir ki, 2,2 milyonla günəş enerjisində ən çox məşğulluq yaradan ölkə Çin olub, sonrakı yerlərdə Yaponiya, ABŞ, Hindistan və Banqladeş qərarlaşıb.

Günəş enerjisi sektorunu 3,6 milyon iş yeri ilə bioenerji sektoru izləyir. Braziliya, İndoneziya, ABŞ, Kolumbiya və Tailand bu sektorda ən yüksək məşğulluğu təmin edən ilk 5 ölkədir.

Qlobal külək enerjisi sektorunda 1,2 milyon nəfər işlə təmin olunub. Bu məşğulluğun 44 faizini isə Çin təmin edib. Sonrakı yerlərdə Almaniya, ABŞ, Hindistan və Böyük Britaniya qərarlaşıb. Ümumilikdə, 11,5 milyon nəfərin çalışdığı qlobal bərpa olunan enerji sektorunda təxminən 900 min iş yeri geotermal enerji, istilik və soyutma kimi müxtəlif sektorlar tərəfindən təmin edilib. Digər tərəfdən, qlobal bərpa olunan enerji sektorunda çalışanların 32 faizi qadınlar olub.

# Hər il dünyada təxminən 1,6 trilyon dollar çirkli pul yuyulur

Birləşmiş Millətlər Təşkilatının (BMT) qlobal maliyyə sahəsində şəffaflıq və hesabatlılıq mövzusunda təşkil edilən paneli vergi qaçaqlığının, çirkli pulların yuyulmasının və korrupsiyanın dünya maliyyəsinə təsirinə dair hesabat açıqlayıb. Hesabatda yoxsulluqla mübarizə üçün istifadə edilə biləcək qaynaqların vergi qaçaqlığı, korrupsiya və maliyyə cinayətləri ucbatından qurtardığı və hər il təxminən 1,6 milyard dollar çirkli pulun yuyulduğu bildirilib. Hesabatda göstərilir ki, gəlirlərin köçürülməsi hər il hökumətlərə 500 milyard dollara başa gəlir. Hazırda "vergi cənnətləri" deyilən ofşor zonalarda 7 trilyon dollar vəsait gizlədilir, yuyulan çirkli pulların ümumi daxili məhsula nisbəti isə 2,7 faiz təşkil edir. BMT panelinin həmsədri və Litvanın keçmiş dövlət başçısı Dalia Qrubauskayte hesabatla bağlı danışarkən korrupsiya və vergi qaçaqlığının geniş yayıldığını və çoxlu sayda bankların gizli əməkdaşlıq etdiyini vurğulayıb: "Hamımız, xüsusi olaraq da yoxsullar soyulur. Yoxsulluq, iqlim dəyişikliyi və COVİD-19 kimi böyük problemlərin öhdəsindən gəlmək üçün maliyyə sisteminə etibar çox mühümdür".

# Gürcüstandan hərbi yüklərin tranzitinə qadağa qoyulub



"Gürcüstan ərazisindən istənilən ölkə tərəfindən hərbi məqsədlərlə yüklərin tranziti üçün istifadəyə qadağa qoyulub".

Bunu Gürcüstan parlamentinin Müdafiə və təhlükəsizlik məsələləri üzrə komitəsinin sədri İrakli Sesiaşvili bildirib. O deyib ki, Gürcüstanın qonşuları bunu bilir və bu yanaşmaya anlayışla yanaşırlar.

Komitə sədrinin sözlərinə görə, Gürcüstan münaqişə ilə bağlı məlum səbəblərə görə bir növ bitərəf mövqe tutur: "Çünki həm Azərbaycan, həm də Ermənistanla olduqca yaxşı qonşuluq münasibətlərimiz var.

Biz hazırkı vəziyyəti təhlil edirik, prosesi müşahidə edirik və bütün ssenarilərə hazırıq".

# "Azərbaycan İqtisadçılar İttifaqı" İB QHT Şurasının dəstəyi ilə layihə icrasını davam etdirir

"Azərbaycan İqtisadçılar İttifaqı" İB Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının 2020-ci ilin 1-ci qrant müsabiqəsində qalib gəlmişdir.

"Peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi"nin peşə liseylərində onlayn təşviqi tədbirləri" adlı bu layihənin icrası davam edir.

Layihənin icra planına uyğun olaraq zəruri tədbirlərin onlayn formatda aparılması nəzərdə tutulur. Layihənin icrası 3 ay davam edəcəkdir.

## ALLAH RƏHMƏT ELƏSİN

Akademik Ziyad Səmədzadə "Azneft" İB-nin baş direktoru Şahmar Hüseynova anası

**ZEMFİRA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Bəyalı Ataşov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Dizayner:
Lamiyə NƏBİYEVA

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, «Azermedia» MMC nəşriyyatı mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500